**Mateuş Piskorski: "İrəvan Qərbə arxalandı və bu da onun tamamilə məhvinə gətirib-çıxardı"**

10


# Səs

№ 196 (6396) **27 oktyabr** 2021-ci il. **Qiyməti 40 qəpik**


# Türkiyə-Azərbaycan: Əbədi qardaşlıq, əbədi birlik!

## Prezident İlham Əliyev:

Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır

2

## YAP və AK Partinin birgə təşkilatçılığı ilə "Qarabağ savaşı: Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi" mövzusunda videokonfrans keçirilib

Oktyabrın 26-da Yeni Azərbaycan Partiyası və Türkiyənin Ədalət və İnkişaf Partiyasının birgə təşkilatçılığı ilə Zəfər Gününün birinci ildönümünə həsr olunmuş "Qarabağ savaşı: Azərbaycan-Türkiyə qardaşlığının növbəti...

5

## Bu il 34 mindən erməni Rusiya vətəndaşlığını qəbul edib ÇOX

4

## Tahir Budagov: "Azərbaycan bu gün öz şanlı tarixinin çox əlamətdar dövrünü yaşayır"

4

## "Liverpul"un 120 milyonluq hədəfi!

16

"Liverpul" heyətinə yeni futbolçu qatmaq niyyətindədir. Qol.az "Bild"ə istinadən xəbər verir ki, "mersisaydlılar" "Borussiya"dan (Dortmund) Cud Bellinqemi transfer etmək istəyir. Baş məşqçi Yurgen Klopp...

Ötən əsrin 90-cı illərində Ermənistandan mühacirətin səbəbləri əsasən iqtisadi xarakter daşıyırdı. Əhalinin kütləvi axınının ilk dalğası da həmin illərə, aclığın tüğyan etdiyi və insanların adi məişət problemlərini həll edə bilmədiyi 90-cı illərə düşdü. Sonrakı...

10

## DTX-nin BAT Mərkəzində "Milli təhlükəsizlik" mövzusunda kursun açılışı olub

Rusiya Milli Enerji Təhlükəsizliyi Fondunun analitiki, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin eksperti İqor Yuşkov "Caliber" analitik...

15

**İqor Yuşkov: "Avropada qazın bahalaşması həm Rusiya, həm də Azərbaycan üçün əlverişlidir"**

## "Covid-19" psixi problemlər də yaradırmış...

16

Aparılan tədqiqatlar nəticəsindəki yeni növ koronavirusa (Covid-19) yoluxmuş bir çox insanın bir müddət sonra...

## Artak üçün məxsusi ianə torbası...

14

Sizi bilmirəm, amma mən o vaxt "artsax"ın yeni təyin olunuş "dövlət naziri" Artak Beqlaryan üstümüzə gəlmək ehtimalından...

# Türkiyə-Azərbaycan:

## Əbədi qardaşlıq, əbədi birlik!

# Prezident İlham Əliyev:

## Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır

**Oktyabrın 26-da Zəngilanın Ağalı kəndində rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Zəngilan rayonunda "Dost Aqropark"ın təməlini qoyublar.**

Dünən Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər. Füzuli Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edildi. Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olublar. AZAL-ın prezidenti Cahangir Əsgərov dövlət başçılarına görülən işlər barədə məlumat verib.

Bildirildi ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi tikilib. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir. Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr yaradılıb. Burada sərnişinlərin rahatlığı üçün bütün meyarlar diqqət mərkəzində saxlanılıb.

O da qeyd olundu ki, hazırda Zəngilan və Laçında beynəlxalq hava limanları tikilir və onların inşası ilə regionun nəqliyyat imkanları daha da genişləndiriləcək.

Daha sonra dövlət başçılarına Cocuq Mərcanlıda açılacaq Suvenir İstehsalı Müəssisəsinin fəaliyyəti barədə məlumat verildi. "Cocuq Mərcanlının İnkişafı" Fondu, "TÜİB" və "TİKA"nın maliyyə dəstəyi ilə yaradılacaq müəssisədə Cocuq Mərcanlı kəndinin 25 sakini işlə təmin olunacaq. Burada hədiyyəlik saxsı qablar, kiçik ölçülü xalçalar, əl işləri və digər məhsullar istehsal ediləcək. Müəssisənin tikintisinə dövlət də öz dəstəyini verib. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin operatorluğu ilə şirkət təsis olunub, istehsal avadanlıqları alınıb və istehsalın təşkili üçün Türkiyədən mütəxəssislər cəlb edilib. Bundan əlavə, "TİKA"nın dəstəyi ilə 15 istixana yaradılıb. 15 ailənin çalışdığı istixanalarda lavanda və bibəriyyə bitkiləri, tərəvəz yetişdiriləcək.

Beləliklə, ən müasir tələblərə cavab verən beynəlxalq hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonlarımızın tezliklə bərpa olunacağının və oraya yenidən həyatın qayıtmasının bariz nümunəsidir. Bu hava limanının istifadəyə verilməsi bölgəyə səfər edənlərin rahatlığını təmin edəcək, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verəcək, nəinki Füzulinin, ümumilikdə bölgənin sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq. Daha sonra dövlət başçıları söhbət ediblər.

Ardı Səh. 3

*İlham Əliyev:*
*Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə əlaqələrini rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır*

*Ərdoğan:*
*Qardaş Azərbaycana bütün imkanlarımızla dəstək olmaqda davam edəcəyik*

# Türkiyə-Azərbaycan:
## Əbədi qardaşlıq, əbədi birlik!

# Prezident İlham Əliyev:
## Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır

**Əvvəli Səh. 2**

Oktyabrın 26-da Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməli qoyulub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan əvvəlcə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış oldular.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlət başçılarına məlumat verdi.

Saleh Məmmədov: Möhtərəm cənab Prezident, hərəkət etdiyiniz bu yol Əhmədbəyli-Füzuli-Şuşa yoludur. Bu yol altı-dörd cərgədən ibarət olacaq. Yolun uzunluğu 81 kilometrdir. Bu yolun başlanğıcdan 50-ci kilometrədək 51 kilometrlik hissəsini Azərbaycan şirkətləri, əllinci kilometrdən 81-ci kilometrə qədər hissəni isə Türkiyənin "Kolin İnşaat" və "Çingiz İnşaat" şirkətləri işləyir. Türkiyə şirkətlərinin işlədiyi hissədə 6 kilometr uzunluqda tunel tikilir və 7 yol ötürücüsü tikiləcək. Tunellərin ümumi uzunluğu 6500 metrdir. Hazırda Şuşa şəhərinin girişində olan 4-cü və 5-ci tunellər artıq tikilmişdir. Biri 431 metr, digəri isə 530 metr uzunluğundadır.

Prezident İlham Əliyev: Kəlbəcərdə tunellər inşa edilir, 12 kilometr.

Saleh Məmmədov: Bəli, Azərbaycanda ən böyük tuneli "Çingiz İnşaat" inşa edir, Toğanalı-Kəlbəcər yolundakı Murovdağ tuneli. Bu, Azərbaycanda ən böyük tuneldir, 11 min 600 metrdir. Artıq o tunelin 350 metri qazılmışdır. Şəkilləri var, mən Sizə göstərəcəyəm.

Prezident İlham Əliyev: Bir də Laçın-Kəlbəcər tuneli.

Saleh Məmmədov: Bəli, Qorçu aeroportunun 3,5 kilometrlik Laçın-Kəlbəcər tuneli də var.

Prezident İlham Əliyev: Tunellərin toplam uzunluğu nə qədərdir?

Saleh Məmmədov: Azərbaycanın Qarabağ ərazisində Türkiyə şirkətləri tərəfindən toplam 62 kilometr uzunluqda tunel tikilir. Hazırda Türkiyə şirkətlərində 6587 işçi çalışır. Onların 1832 nəfəri Türkiyə vətəndaşı, 4500 nəfəri isə Azərbaycan vətəndaşıdır. Ümumilikdə Qarabağ zonasında işləyən şirkətlərdə toplam 13 min 280 nəfər çalışır.

Bu gün təməli qoyulacaq yol isə Zəngəzur dəhlizi yoludur. Başlanğıcını dayandığımız bu yerdən götürəcək. Birinci qovşaq budur. Buradan Ağbəndə, Ermənistan sərhədinə qədər məsafə 123,6 kilometrdir.

Prezident Rəcəb Tayyib Ərdoğan: Ermənistan sərhədinə qədər gedirsiniz, elədirmi? Daha irəli gedəcəksiniz.

Saleh Məmmədov: Bəli, oradan da o tərəfə keçəcəyik. Allahın köməyi ilə düz İstanbula qədər gedəcəyik, Avropaya qədər gedəcəyik. Allah Sizləri qorusun.

Bu yolun üzərində də 3 tunelimiz var. Uzunluğu toplam 3610 metrdir. Hazırda Zəngilan ərazisində dördüncü tunel tikilir. Tuneldə artıq 160 metr iş görülüb. Bu hissədə bütün yolu "Kalyon" şirkəti tikir. Həmin yolun üzərində Zəngilan hava limanı da yerləşir. Hava limanına gedən yolun 20 kilometrlik hissəsini "Kalyon" şirkəti ilə birlikdə Azərbaycan şirkəti tikir. Bu yolun üzərində rayon mərkəzləri ilə hava limanını birləşdirən 7 qovşaq tikiləcək. Bu qovşaq təməli qoyulan yolun sıfırıncı kilometrində olacaq.

Bu, bizim dayandığımız 6-4 cərgəli Əhmədbəyli-Füzuli ana yoludur. Bu isə, həmin bu qovşaqdan çıxıntılarla Zəngəzur dəhlizi ilə Naxçıvana, oradan da İstanbula gedən yol olacaq, İnşallah. Bu da Əhmədbəyli-Füzuli-Şuşa yolunda gedən tikinti işlərinin şəkilləridir, "Çingiz İnşaat"ın işlədiyi tunellərdir. Burada işlər həm partlatma üsulu ilə gedir, həm də sıxma üsulu ilə.

Hazırda qısa tunellərdə işlərin 45-50 faizi yerinə yetirilib. Bunlar da tikinti vaxtı görülən işlərdir. Biz möhtərəm cənab Prezidentin göstərişi ilə orada tikintiyə qışda başlamışdıq. Bunlar həmin dövrdə çəkilən şəkillərdir. Ümumiyyətlə, Qarabağ zonasında heç vaxt 4-6 cərgəli avtomobil yolu olmamışdır. İlk dəfədir Qarabağda belə yollar tikilir. Bu isə Zəngəzur dəhlizi üzrə "Kalyon" şirkətinin çəkdiyi yollardır. Burada da həyat olmayıb. Bu yolun mövcud Horadiz yoluna ən uzaq məsafəsi 1,6 kilometr, ən yaxın məsafəsi 200 metrdir. Böyük işlər görülüb, "Kalyon" şirkəti tərəfindən işin demək olar ki, 45 faizdən çoxu yerinə yetirilib. Allahın köməyi ilə gələcəkdə, yəqin ki, 2023-cü ilə qədər bu yolun açılışında da iştirak edərsiniz.

Sonra Azərbaycan və Türkiyə prezidentləri Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoydular.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olublar. AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov dövlət başçılarına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə edilməklə tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. "Ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunacaq. Piyada və velosiped yolları çəkiləcək. Bir sözlə, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait yaradılacaq.

Burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı da bir sıra işlər görüləcək. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb. Burada "Ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzindən həyata keçiriləcək.

Daha sonra Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev qeyd edib ki, Türkiyə Prezidentinin bu səfərinin çox böyük önəmi var: "Siz ikinci dəfədir ki, işğaldan azad edilmiş torpaqlara səfər edirsiniz. Dörd ay bundan əvvəl Sizinlə bərabər Şuşa şəhərində olmuşuq. Bu gün isə Füzulidə və Zəngilandayıq. Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi tarixi sənəddir. Bu bəyannamə bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Bu gün Füzuli Beynəlxalq Hava limanının açılışında birlikdə iştirakımız bir daha bizim birliyimizi göstərir, gücümüzü göstərir. Bu, onu göstərir ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır. Füzuli Beynəlxalq Hava Limanının inşası cəmi səkkiz ay davam etdi. Səkkiz ay ərzində beynəlxalq hava limanı inşa edildi və bu hava limanının inşasında Azərbaycan və Türkiyə şirkətləri iştirak etmişlər. Yəni, bu, bizim birgə uğurumuzdur", - deyə dövlətimizin başçısı vurğulayıb.

Bu gün Zəngilan rayonunda birinci özəl yatırım layihəsinin də təməlini qoyduq. Bu yatırım layihəsi də Türkiyə-Azərbaycan birgə layihəsidir.

Dövlətimizin başçısı qeyd edib ki, bu, bütün işlərdə, o cümlədən işğaldan azad edilmiş torpaqlarda gedən quruculuq, bərpa işlərində də bizim çiyin-çiyinə bir yerdə irəlilədiyimizi bir daha göstərir. Bu gün Zəngilanın Ağalı kəndindəki bu rəsmi mərasim tarixdə qalacaq. Bizim birgə addımlarımız tarixdə əbədi qalacaq. "Bu tarixi biz birlikdə yazırıq, necə ki, bütün dövr, müharibə dövrü ərzində birlikdə idik, bu gün də bir yerdəyik", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Prezident İlham Əliyev diqqətə çatdırıb ki, iki həftə sonra Şuşanın azad olunmasını böyük Zəfər bayramı kimi qeyd edəcəyik. İkinci Qarabağ savaşının ilk saatlarından son dəqiqələrinə qədər Türkiyə Azərbaycanın yanında olub. Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana müraciətlə deyib: "Əziz Qardaşım, sayın Cumhurbaşkanı ilk saatlarda Azərbaycana dəstək göstərdi, bütün dünyaya bəyan etdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizə çox böyük dəstək, siyasi və mənəvi dəstək verdi, bizə əlavə güc verdi. Bu gün Azərbaycan xalqı haqlı olaraq Sizə, əziz Qardaşım, öz təşəkkürünü bildirir. Siz bilirsiniz ki, Azərbaycanda hər kəs Sizi sevir, Sizə böyük hörmətlə yanaşır. Siz bizim Zəfərimiz üçün çox böyük işlər görmüsünüz və bu gün artıq bərpa dövründə yenə də bizimlə bərabərsiniz".

Daha sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Zəngilanın Ağalı kəndində mətbuata bəyanatında maraqlı fikirlər səsləndirib. Türkiyə Prezidenti qeyd edib ki, bu gün etdiyimiz səfər zamanı Azərbaycandakı işğaldan azad edilən bölgələrin qısa müddətdə necə dirçəldiyini, necə sürətlə inkişaf etdiyini görürük: "Bu hər igidin, hər siyasətçinin işi deyil. Türkiyə Prezidenti deyib ki, bu qədər qısa müddətdə bu investisiyaları yatırmaq və bu işləri həyata keçirmək buralardan ayrılmağa məcbur qalmış azərbaycanlı qardaşlarımıza bir müjdədir. İnanıram ki, azərbaycanlı qardaşlarım ən qısa müddətdə son dərəcə gözəl bir şəkildə inşa edilən, bərpa olunan bu yerlərə qayıtmaq imkanı əldə edəcəklər. Azərbaycan bütün dünyaya örnək olacaq bir model ilə bu bölgəni inkişaf etdirmək üçün fəaliyyətini davam etdirir. Təməli qoyulan layihələr, tunellər, avtomobil yolları bölgədə görülən işlərin miqyasını göstərmək baxımından çox önəmlidir. Bu fəaliyyətə liderlik edən İlham qardaşımı və əməyi keçən hər kəsi ürəkdən təbrik edirəm. Podratçı firmaları təbrik edirəm. Podratçı firmaların işi ən yüksək təqdirə layiqdir. Türkiyə olaraq, biz də bu fəaliyyətlərdə üzərimizə düşəni etməyə, qardaş Azərbaycana bütün imkanlarımızla dəstək olmaqda davam edəcəyik".

## *Azərbaycan Prezidenti:*
## *Bizim birgə addımlarımız tarixdə əbədi qalacaq*

## *Ərdoğan:*
## *İşğaldan azad edilən bölgələrin qısa müddətdə sürətlə inkişaf etdirilməsi hər siyasətçinin işi deyil*

## Tahir Budaqov:

# "Azərbaycan bu gün öz şanlı tarixinin çox əlamətdar dövrünü yaşayır"

"Azərbaycan bu gün öz şanlı tarixinin çox əlamətdar dövrünü yaşayır. 44 günlük Vətən müharibəsini Zəfərlə başa vuran - möhtəşəm Qələbə qazanan Azərbaycan öz ərazi bütövlüyünü təmin etməklə yanaşı tarixi ədaləti və milli ləyaqətini bərpa etmiş oldu. Təbii ki, istər bu müharibə, istər ondan öncəki, istərsə də sonrakı dövrdə Azərbaycan xalqı və dövləti hər zaman Türkiyə dövlətinin və xalqının, qardaş ölkənin Prezidentinin, rəsmilərinin güclü dəstəyini hiss edib. Şübhəsiz ki, Türkiyə kimi qüdrətli bir dövlətin birmənalı mənəvi - siyasi dəstəyi Azərbaycana əlavə güc verdi, ölkəmizə qarşı olan bir çox dairələrin, qüvvələrin neytrallaşdırılması bu proseslərə aktiv müdaxilənin qarşısını aldı".

Bu fikirləri Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov deyib.

Tahir Budaqov bildirib ki, Azərbaycan-Türkiyə münasibətləri postmüharibə dövründə də yüksələn xətlə inkişaf edir: "Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın oktyabrın 26-da Azərbaycana növbəti səfəri və bu səfər çərçivəsində Füzuli Beynəlxalq Hava Limanının açılması Azərbaycan -Türkiyə qardaşlığının, dostluğunun, tərəfdaşlığının, strateji müttəfiqlik səviyyəsinə yüksələn münasibətlərinin növbəti təzahürüdür. Eyni zamanda, bu səfər iki ölkə arasında sarsılmaz dostluğu növbəti dəfə dünya ictimaiyyətinə açıq şəkildə nümayiş etdirəcək, çox mühüm bir mesaj olacaq. Bu səfər, həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpası və ümumilikdə regionda yeni reallıqların, yeni geostrateji vəziyyətin möhkəmlənməsi baxımından xüsusi önəm daşıyacaq".

# Parlamentdə YAP-ın Ərazi Partiya Təşkilatının hesabat seçki yığıncağı keçirilib

**Yeni Azərbaycan Partiyasının (YAP) Səbail rayon təşkilatı üzrə "Parlament prospekti 1" Ərazi Partiya Təşkilatının videoformatda növbəti hesabat seçki yığıncağı keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən SİA-ya verilən məlumata görə, onlayn iclası açan Ərazi Partiya Təşkilatının sədri, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, gündəliyə Ərazi Partiya Təşkilatının 2017-ci ilin fevralından bu günədək fəaliyyətinə dair hesabat və Ərazi Partiya Təşkilatının sədrinin və sədr müavininin seçilməsi barədə məsələlər daxildir.

Hesabatı slaydlar formatında təqdim edən Adil Vəliyev statistik icmal, təşkilatda təmsil olunan millət vəkillərinin, qadınların və gənclərin say nisbəti, onların fəallıq əmsalı, Milli Məclisin struktur bölmələri üzrə Ərazi Partiya Təşkilatının üzvlərinin faiz indikatoru, habelə islahatlar çərçivəsində Ərazi Partiya Təşkilatının fəaliyyətinin təkmilləşdirilməsinə və səmərəliliyinin təmin edilməsinə istiqamətlənmiş yeniliklər barədə ətraflı məlumat verib.

Bildirib ki, təşkilat öz fəaliyyətini əsasən YAP-ın sədri, Azərbaycan Prezidenti İlham Əliyevin dövlət və partiya tədbirlərindəki nitqlərində səsləndirdiyi müddəaların, habelə partiyanın Proqram və Nizamnaməsindən irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində qurub.

Ərazi Partiya Təşkilatının sədri Adil Vəliyev diqqətə çatdırıb ki, Azərbaycan Parlamenti hazırda özünün ən gözəl, ən mükəmməl dövrəlindən birini yaşayır. Dövlətçilik ruhuna, milli ruha köklənmiş insanlardan ibarət Milli Məclis işini yüksək peşəkarlıq, mənəviyyat və şərəflə görür. Hətta pandemiyanın tüğyan etdiyi zamanlarda belə, Milli Məclisin fəaliyyətində ən kiçik axsama belə olmadı, qanunların qəbulu gecikmədi, iclaslarımız təxirə salınmadı. 44 günlük Vətən müharibəsi dövründə beynəlxalq ictimaiyyəti məlumatlandırmaq məqsədilə parlament diplomatiyası var gücü ilə işlədi, 88 ölkənin parlamentinə, 11 beynəlxalq təşkilata məktublar göndərildi, ard-arda bəyanatlar verildi.

Adil Vəliyev diqqətə çatdırıb ki, fəaliyyətimizin əsas istiqamətlərindən biri də Səbail rayon təşkilatının xətti ilə şəhid ailələrinin və qazilərimizin ziyarət edilməsi, habelə rayon təşkilatının təşkil etdiyi müxtəlif tədbirlərdə iştirak, ən əsası isə Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin ictimaiyyət arasında geniş izahı və təbliği olub.

Onlayn iclasda çıxış edən Ərazi Partiya Təşkilatının üzvləri, Milli Məclisin deputatları Hikmət Məmmədov və Mixail Zabelin ulu öndər Heydər Əliyevin mütərəqqi ideyalarının daşıyıcısı olan Yeni Azərbaycan Partiyasının keçdiyi yola nəzər salıblar, ölkəmizin qazandığı uğurlardan, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız Qələbənin mühüm əhəmiyyətindən danışıblar, Ərazi Partiya Təşkilatının işini yüksək qiymətləndiriblər. Hesabat səsə qoyularaq qənaətbəxş hesab edilib. Sonra Ərazi Partiya Təşkilatı sədrinin və sədr müavininin seçilməsi məsələsinə baxılıb. Səsvermə nəticəsində Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil İsrayıl oğlu Vəliyev sədr, Milli Məclis Rəhbərliyinin Katibliyinin rəisi Teymur Aqil oğlu Tağıyev isə sədr müavini seçiliblər.

İclasda YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev, YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev çıxış edərək partiyanın fəaliyyətində tətbiq olunan yeniliklərdən danışıblar, həyata keçirilən islahatları yüksək qiymətləndiriblər. Təqdim olunan hesabatın və ərazi partiya təşkilatının fəaliyyətinin qənaətbəxş olduğu bildirilib.

# DTX-nin BAT Mərkəzində "Milli təhlükəsizlik" mövzusunda kursun açılışı olub

Oktyabrın 25-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Beynəlxalq Antiterror Təlim (BAT) Mərkəzində Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası katibinin xidmətinin təşkilatçılığı ilə "Milli təhlükəsizlik" mövzusunda kursun açılış mərasimi keçirilib.

SİA-nın DTX-nin saytına istinadən məlumatına görə, tədbirdə Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi general-polkovnik Ramil Usubov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, DTX-nin rəisi general-polkovnik Əli Nağıyev, dövlət orqanlarının rəhbər əməkdaşları və Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibinin nümayəndəsi iştirak etmişlər. Oktyabrın 29-dək davam edəcək kursda Azərbaycan Respublikasının 32 dövlət qurumunun 54 nümayəndəsinin milli təhlükəsizliyin müxtəlif aspektlərinə dair mühazirələrlə çıxışları, praktiki məşğələlər və panel müzakirələr nəzərdə tutulur. Kursun keçirilməsində məqsəd milli təhlükəsizlik sahəsində mövcud vəziyyətin və ona qarşı yönələn təhdidlərin qiymətləndirilməsi, milli təhlükəsizliyin təmin olunmasında aidiyyəti strukturların birgə fəaliyyətinin təkmilləşdirməsi və dövlət təşkilatları arasında təcrübə mübadiləsinin aparılmasıdır. Tədbir Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda qəhrəmancasına həlak olmuş Vətən övladlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlamışdır.

İlk olaraq çıxış edən Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi general-polkovnik Ramil Usubov belə bir tədbirin keçirilməsi üçün yaradılan şəraitə görə DTX-nin rəisi general-polkovnik Əli Nağıyevə, tədbirdə iştirakına görə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevə təşəkkürünü ifadə etmişdir. Natiq bildirmişdir ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz dünyada sabitlik məkanı kimi tanınır və bu amil də öz növbəsində respublikada bütün sahələrin hərtərəfli inkişafına zəmin yaratmışdır. Bu gün Azərbaycanın birbaşa iştirakı olmadan beynəlxalq səviyyəli nəqliyyat-logistika və nəhəng enerji layihələrinin reallaşması, mühüm siyasi qərarların qəbul olunması mümkün deyildir. Bununla yanaşı qeyd edilmişdir ki, son zamanlarda, xüsusən də Vətən müharibəsində qazanılmış Qələbədən sonra bəzi qüvvələr öz məkrli planlarını həyata keçirməklə bölgədə yaranmış stabilliyin yenidən pozulmasına çalışır, müxtəlif təxribatlara əl atırlar. Bu təhdidlərə qarşı xüsusi xidmət və hüquq mühafizə orqanlarının birgə effektiv mübarizəsindən danışan general-polkovnik Ramil Usubov dövlətin hərbi potensialının artırılması, müdafiə qabiliyyətinin yüksəldilməsi istiqamətində daim lazımi tədbirlərin görüldüyünü, vacib addımların atıldığını diqqətə çatdırmışdır.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış edərək hər bir dövlətin prioritet məsələsi olan milli təhlükəsizliyin etibarlı təmin olunmasından danışmış, bu sahədə fəaliyyətin həyata keçirilməsində ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə hazırlanmış Milli Təhlükəsizlik Konsepsiyasının önəmindən bəhs etmişdir. 30 ilə yaxın müddət ərzində dövlətimizin təhlükəsizliyi əleyhinə yönəlmiş başlıca amilin Ermənistan tərəfindən aparılan işğalçılıq siyasəti olduğunu bildirən şöbə müdiri qeyd etmişdir ki, Müzəffər Ali Baş Komandanın qətiyyətli sərkərdəliyi altında Azərbaycan Ordusunun Vətən savaşında qələbə çalmaqla erməni faşizmini məhv etməsi nəticəsində regionda yeni təhlükəsizlik düzəni formalaşmışdır.

Tədbirdə çıxış edən DTX-nin rəisi general-polkovnik Əli Nağıyev tədbirin keçirilməsinin əhəmiyyətinə toxunaraq hazırkı dönəmdə respublikamızın təhlükəsizliyinə yönəlmiş təhdidlərə qarşı səylərin birləşdirilməsinin vacibliyindən bəhs etmiş, aidiyyəti qurumların koordinasiyalı şəkildə mümkün risklərlə səmərəli mübarizəsindən danışmışdır. Vurğulanmışdır ki, Azərbaycanın sülh çağırışlarına baxmayaraq, Vətən müharibəsindən sonra hələ də bölgədə olan real vəziyyətlə barışmaq istəməyən, revanşist ideyalarla yaşayan qüvvələrin destruktiv əməlləri müşahidə edilməkdədir. Belə ki, mövcud vəziyyəti qəbul edə bilməyən Ermənistandakı mənfur ünsürlər daima ölkəmizə qarşı əks-təbliğat aparır, Azərbaycanda yaşayan müxtəlif xalqların arasında nifaq toxumu səpməyə çalışır, qonşu dövlətlərlə respublikamız arasında olan münasibətlərin gərginləşməsinə çalışır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aidiyyəti dövlət orqanları tərəfindən ermənilərin ölkəmizə qarşı mümkün təxribatları diqqətlə izlənilir və adekvat tədbirlər görülür. General-polkovnik Əli Nağıyev ayrı-ayrı xarici dövlətlərin xüsusi xidmət orqanlarının Azərbaycana qarşı kəşfiyyat-pozuculuq fəaliyyətinin zərərsizləşdirilməsi istiqamətində həyata keçirilmiş tədbirlər barədə məlumat vermiş, bəzi vətəndaşların ölkə hüdudlarından kənarda qanunsuz silahlı birləşmələrə qoşulması, hərbi təlimlər keçərək silahlı münaqişə ocaqlarında iştirak etməsinin də narahatlıq doğuran məsələlərdən biri olduğunu və həmin şəxslərin gələcəkdə ölkə ərazisində terror-təxribat əməlləri törətməyə cəhd etməsinin də daim diqqət mərkəzində saxlanıldığını nəzərə çatdırmışdır. Çıxışında informasiya təhlükəsizliyi sahəsində baş verən cinayətlərin, koronavirus pandemiyasının yaratdığı problemlərin ümumi təhlükəsizlik arxitekturasına təsirlərindən də danışan DTX rəisi vurğulamışdır ki, respublikamızda mövcud sabitliyin pozulmasına yönəlmiş bütün sadalanan hallara qarşı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən bundan sonra da qətiyyətli tədbirlər görüləcəkdir.

Tədbir iştirakçı müvafiq dövlət qurumlarının nümayəndələrinin çıxış və mühazirələri ilə davam etmişdir.

# YAP və AK Partinin birgə təşkilatçılığı ilə "Qarabağ savaşı: Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi" mövzusunda videokonfrans keçirilib

**Oktyabrın 26-da Yeni Azərbaycan Partiyası və Türkiyənin Ədalət və İnkişaf Partiyasının birgə təşkilatçılığı ilə Zəfər Gününün birinci ildönümünə həsr olunmuş "Qarabağ savaşı: Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi" mövzusunda videokonfrans keçirilib.**

Əvvəlcə Yeni Azərbaycan Partiyasının sifarişi ilə SƏS TV tərəfindən hazırlanmış "44 günlük Zəfər salnaməsi" sənədli filmi nümayiş etdirilib.

Videokonfransın moderatorları, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramil Həsən və AK Partinin Xarici əlaqələr departamentinin müdir müavini Mehmet Ceylan Zəfər Gününün birinci ildönümünə həsr olunmuş bu tədbirin əhəmiyyətini vurğulayıblar. Qeyd olunub ki, İkinci Qarabağ müharibəsində baş verən proseslər Azərbaycan-Türkiyə qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Moderatorlar həmçinin bu tipli konfransların keçirilməsinin YAP və AK Parti arasında münasibətlərin inkişafının növbəti göstəricisi olduğunu diqqətə çatdırıblar.

Videokonfransda çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bu tədbir tarixi bir hadisənin gerçəkləşdiyi günə təsadüf edir. Belə ki, oktyabrın 26-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev Füzuli Beynəlxalq Hava Limanının açılışını etdilər. Həmin açılış mərasimini izlədikcə bir daha Azərbaycan-Türkiyə qardaşlığının, müttəfiqliyinin nəinki regionumuza, bütövlükdə Avrasiya məkanına nə dərəcədə töhfə verdiyinin şahidi oluruq.

YAP Sədrinin müavini deyib ki, Azərbaycanın şanlı qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsindən bir il ötür. Xalqımızın milli mübarizə ruhunu - sarsılmaz həmrəyliyini, dövlətimizin gücünü - qüdrətini əks etdirən İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi və siyasi məzmuna malikdir. Çünki birincisi, Azərbaycan 30 ilə yaxın davam edən işğal faktına, separatizmə öz milli gücü ilə, hərbi-siyasi resursları vasitəsilə son qoydu, BMT-nin uzun müddət kağız üzərində qalmış qətnamələrinin icrasını təmin etdi. Beləliklə, bu qələbə ilə həm tarixi ədalətin, həm də beynəlxalq hüququn bərpasına müvəffəq olduq. İkincisi, bu tarixi Zəfər xalqımızın milli qürurunun və milli ləyaqətinin bərpası olmaqla yanaşı, qərəzli dairələrin ikili standartlara və selektiv yanaşmaya əsaslanan siyasətinin iflasıdır. Nəhayət, Azərbaycan regionda yeni geostrateji reallıqlar yaratdı. Bu, bölgədə yeni təhlükəsizlik mühitinin və əməkdaşlıq imkanlarının formalaşması deməkdir.

"Şübhəsiz ki, Azərbaycanın tarixi qələbəsini təmin edən mühüm amillərdən biri qardaş Türkiyə Cümhuriyyətinin ölkəmizə qətiyyətli, birmənalı və güclü mənəvi-siyasi dəstək göstərməsidir. Müharibənin başladığı gündən etibarən başda qardaş ölkə ictimaiyyəti Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə etdi, həm reallıqların dünya ictimaiyyətinə çatdırılmasında, həm də erməni yalanlarının ifşasında yüksək fəallıq nümayiş etdirdi. Prezident Rəcəb Tayyib Ərdoğan müxtəlif tribunalardan Azərbaycanın haqq işinə prinsipial dəstəyini ifadə etməklə beynəlxalq ictimaiyyətin diqqətini obyektiv gerçəkliklərə, tarixi, siyasi və mənəvi həqiqətlərə yönəltdi. Azərbaycan xalqı və dövləti qardaş dəstəyini minnətdarlıq hissi ilə çox yüksək qiymətləndirir. Eyni zamanda, Azərbaycan da öz növbəsində qardaş Türkiyəyə milli-strateji və prinsipial məsələlərdə güclü dəstək nümayiş etdirir. Bütün bunlar isə ümummilli lider Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" və böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamlarının real həyatda bir daha öz təsdiqini tapmasıdır. Ümumiyyətlə, dünyada Azərbaycan ilə Türkiyə qədər bir-birinə yaxın ölkələr yoxdur. Milli dəyərlər və tarixi ənənələr üzərində təşəkkül tapmış bu qardaşlıq münasibətləri bənzəri olmayan birlik və həmrəylik nümunəsidir",-deyən Tahir Budaqov qeyd edib ki, postmüharibə dövründə də dostluğa, qardaşlığa və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri yüksələn xətt üzrə inkişaf edir, iki qardaş ölkənin birgə təşəbbüsləri regionun yeni geostrateji dizaynında müstəsna rol oynayır. Azərbaycan və Türkiyə prezidentləri cənab İlham Əliyevlə cənab Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluq münasibətləri, qardaşlığı bütün sahələrdə əməkdaşlığa, görülən işlərə öz töhfəsini verməkdədir. İki ölkə başçısının siyasi iradəsi tərəflər arasında iqtisadi, hərbi-texniki, mədəni-humanitar və digər istiqamətlərdə münasibətlərin dinamik inkişafını təmin edir. Fəal siyasi dialoq şəraitində iqtisadi əlaqələrin genişlənməsi iki ölkənin milli maraqlarına xidmət edən mühüm strateji amildir.

YAP Sədrinin müavini xüsusi nasibətlərin, gələcək əməkdaşlığın yeni istiqamətləri müəyyənləşdirilib və biz ortaq hədəflərimizin reallaşdırılması istiqamətində məqsədyönlü fəaliyyətimizi ardıcıl olaraq davam etdiririk. Qarabağ Zəfəri sonrası reallıqlar həm Azərbaycan, həm Türkiyə, həm də regionda bütün xalqlar və dövlətlər üçün yaxşı perspektivlər vəd edir. Əminliklə söyləmək olar ki, Azərbaycan və Türkiyə bundan sonra da ortaq milli maraqlar əsasında fəaliyyət göstərəcək, möhkəm həmrəylik və qətiyyətli siyasi iradə nümayiş etdirəcəklər. Hakim siyasi partiyalar da bu istiqamətdə öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər!".

AK Parti Sədrinin birinci müavini, İstanbul Millət Vəkili Numan Kurtulmuş çıxışında bildirib ki, bu gün böyük iftixarla ildönümünü qeyd etdiyimiz Qarabağ Zəfərinin Azərbaycan və Türkiyə xalqı üçün həqiqətən çox önəmlidir. Onun sözlərinə görə, bu müddət ərzin-

vurğulayıb ki, bu ilin iyun ayının 15-də Azərbaycan ilə Türkiyə arasında Strateji Müttəfiqliyə dair Şuşa Bəyannaməsinin imzalanması tərəfdaşlıq münasibətlərinin yeni səviyyəyə yüksəlməsini şərtləndirib: "Şuşa Bəyannaməsinin imzalanmasından sonra görülən işlər iki ölkə arasında siyasi, iqtisadi-ticari, hərbi-strateji, mədəni-humanitar sahələrdə münasibətlərin inkişafına mühüm töhfədir. Ümumiyyətlə, Azərbaycan-Türkiyə strateji müttəfiqliyi bu gün regionda mühüm bir faktordur. Postkonflikt mərhələsində iki ölkənin tərəfdaşlığı bölgədə sülh və təhlükəsizlik mühitinin möhkəmlənməsi, çoxtərəfli qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsi və inteqrasiyanın sürətlənməsi baxımından böyük əhəmiyyətə malikdir. Təqdirəlayiq haldır ki, dünyada bənzəri olmayan, unikal əməkdaşlıq və sıx dostluq-qardaşlıq nümunəsi olan Azərbaycan-Türkiyə münasibətlərinin davamlı inkişafında hər iki ölkənin hakim partiyasının müstəsna rolu var. Partiyalarımız arasında təmaslar intensiv xarakter daşıyır və keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası dövlət başçılarının qardaşlıq münasibətlərini örnək götürərək əlaqələrimizi daha da gücləndirmək, inkişaf etdirmək üçün mühüm səylər və təşəbbüslərlə çıxış edir. Tarixdə ilk dəfə olaraq iki partiya arasında Əməkdaşlıq Protokolunun imzalanmasından sonra qarşılıqlı mü-

də hər iki ölkənin prezidentləri başda olmaqla dövlət qurumları və təşkilatlarının sıx əməkdaşlığı çərçivəsində "tək millət, iki dövlət" olaraq davam etdirdiyimiz əməkdaşlığımız ən irəli nöqtələrə qədər irəliləyib və bundan sonra da yüksələn xətt üzrə davam edəcək: "Bu müddət ərzində sadəcə rəsmi münasibətlər deyil, eyni zamanda iki ölkə, iki iqtidar partiyası olan Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında münasibətləri də institusional olaraq inkişaf etdirmək üçün çox əmək sərf olundu, böyük məsafə qət etdik. Buna görə əməyi keçən bütün dostlarımıza bir daha təşəkkür edirəm. Yeni Azərbaycan Partiyasının heyəti Türkiyəyə gəldi. Burada dəfələrlə görüşdük. Ən sonda iki partiya arasında Əməkdaşlıq protokolu imzalandı. Biz də bu il yayda Azərbaycanda görüşlər həyata keçirdik. Bir daha Azərbaycan ziyarətimizin ilk anından hava limanından yola salınma anına qədər bizə son dərəcə üstün qardaşlıq və dostluq göstərən başda partiyanın Sədr müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov olmaqla Yeni Azərbaycan Partiyasındakı bütün dostlarımıza bir daha təşəkkür edirəm".

Numan Kurtulmuş konfransın mövzusu ilə bağlı fikirlərini iki əsas istiqamətdə diqqətə çatdırıb: "Bunlardan birincisi, Azərbaycanın qazandığı bu Zəfər bizə nə öyrətdi, buradan öyrəndiklərimiz nələrdir. İkincisi, bundan sonrakı müddətdə üzərimizə düşən nədir, nələr etməliyik.

*Ardı Səh. 6*

# YAP və AK Partinin birgə təşkilatçılığı ilə "Qarabağ savaşı: Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi" mövzusunda videokonfrans keçirilib

**Əvvəli Səh. 5**

Bunları çox qısa, sadəcə əsas başlıqlarla dəyərləndirmək istəyirəm. Böyük bir müharibə geridə qaldı. Böyük əmək sərf olundu. Şəhidlərimiz, qazilərimiz oldu. Şəhərlər dağıdıldı. İndi müharibədən öyrəndiklərimizi 5 başlıq altında ifadə etmək istəyirəm. Birincisi, Qarabağın işğalı və ondan sonrakı müddətdə yaşadıqlarımız beynəlxalq ictimaiyyətin qərəzliliyini, beynəlxalq sistemin dünyada yaşanan böhranları, gərginlikləri həll etməkdə nə qədər bacaraqsız və aciz olduğunu açıq şəkildə ortaya qoydu. Hamımız mövzunu ətraflı şəkildə bilirik. 30 illik erməni işğalı müddətində təəssüflər olsun ki, hər dəfə ağızlarını açdıqda ölkələrin ərazi bütövlüyündən, müstəqilliyindən, demokratiya və xalqların iradəsindən bəhs edənlərin işğalı necə müdafiə etdiklərinə və Azərbaycanın beynəlxalq ictimaiyyət qarşısındakı haqlarını qəsb etmək üçün necə səy göstərdiklərinə şahid olduq. Eyni şəkildə, beynəlxalq ictimaiyyətdə əslində başda BMT olmaqla sülhü bərqərar etmək öhdəliyi daşıyan qurumların bu müddətdə Qarabağın işğalı məsələsində aciz qaldığını, bəlkə də istəksiz davrandığını gördük. ATƏT-in Minsk qrupunun bacarıqsızlığını, sülhə dəstək vermədiyini hamımız bilirik. Dolayısı ilə, Qarabağ məsələsi bizə və bütün dünyaya bunu öyrətdi: beynəlxalq ictimaiyyət sərf etmədiyi zaman ikiüzlü, ikili standartlı, beynəlxalq sistem isə sülhü bərqərar etməkdə aciz və laqeyddir. Bunu, sanki, bir laborotoriya kimi bizə öyrətdilər. Sadəcə Azərbaycan və Türkiyəyə deyil, bütün dünyaya nümayiş etdirdilər".

Azərbaycanın Qarabağ Zəfərindən çıxardığımız ikinci dərsə gəlincə, Numan Kurtulmuş qeyd edib ki, beynəlxalq aləmdə diplomatik fəaliyyətimizi davam etdirəcəyik. diplomatik masanı hər zaman açıq saxlayacağıq, münasibətlərimizi ən yüksək səviyyədə davam etdirəcəyik: "Amma yeri gəldiyi zaman öz göbəyimizi özümüz kəsməyi də biləcəyik. Bir az əvvəl sənədli filmdə də gördük. Başda Prezident İlham Əliyev olmaqla, Azərbaycanın rəhbərliyinin qərarlılığı, Azərbaycan xalqının bu məsələdəki birliyi olmasa idi, bəlkə də, Qarabağdakı Zəfər bu qədər asan başa gələməyəcəkdi. Ona görə deyirik ki, beynəlxalq aləmdə mübarizəmizi davam etdirəcəyik, amma lazım gəldikdə öz göbəyimizi özümüz kəsəcəyik. Bu baxımdan, 44 günlük Qarabağ zəfəri, o möhtəşəm mübarizə öz göbəyimizi özümüz necə kəsə bilərik məsələsində bizə dərs verdi. Bundan da çox şey öyrəndik.

Üçüncüsü, həm regional, həm də beynəlxalq məsələlərdə Türkiyə-Azərbaycan qardaşlığının önəmi bir daha Qarabağın işğaldan azad olunması ilə birlikdə təsdiqləndi. Bunu bilirik, ürəkdən yaşayırıq, zehnimizin içərisində bu qardaşlığın hər zaman yer etdiyini bilirik. Bizim münasibətlərimiz, əslində, strateji müttəfiqlikdən də yüksəkdir, bir qardaşlıq münasibəti olaraq ortaya çıxmışdır. Həm diplomatik müstəvidə, həm Azərbaycanın döyüş meydanında apardığı mübarizədə Türkiyə hər zaman bir qardaş kimi səfərbər olub. Prezidentimizdən tutmuş sadə vətəndaşımıza qədər hər kəs bu qardaşlıq borcunu yerinə yetirməyi milli vəzifə olaraq qarşıya qoyub.

Bu Zəfərdən çıxardığımız dördüncü nəticə müdafiə sənayesində güclü olmağın, xüsusilə bu regionda güclü olmağın zəruriliyidir. Bu baxımdan, sülh istəyiriksə, müharibəyə hazır olmağın vacibliyini gördük. Bu mənada, Azərbaycan əsgərlərinin cəsarəti, həm rəhbərliyin gücü, həm Türkiyənin verdiyi dəstək fövqəladə vacib idi. Amma dəstəklər içərisində xüsusilə Türkiyə milli müdafiə sənayesinin son illər əldə etdiyi uğurlar, Azərbaycanın isə pilotsuz uçuş aparatlarının istifadəsində göstərdiyi böyük səy və qazandığı nailiyyət Qarabağ Zəfərinin qazanılmasında açar rollardan birini oynadı. Əgər Türkiyə keçmiş zamanlarda olduğu kimi, Amerikadan kredit almaq üçün illərlə qapısında gözləməli olsaydı, bu gün Türkiyənin pilotsuz uçuş aparatları olmayacaqdı. Bəlkə də, Azərbaycanın müharibədə təsirli olaraq istifadə etdiyi pilotsuz uçuş aparatları nəticə əldə etmək üçün əlimizdə güc ünsürü kimi olmayacaqdı. Bundan sonrakı mərhələdə də müdafiə sənayesinin bütün sahələrində xüsusilə yüksək texnologiyalar istifadə edərək daha güclü olmağın, hər iki ölkənin müdafiə sənayesini gücləndirmək üçün addımlar atılmasının çox vacib əhəmiyyət daşıdığını bir daha bildirmək istəyirəm. Keçən həftə həyatını itirən PUA-ların öncülü, layihənin memarı, 30 illik dostum Özdemir Bayraktarı rəhmətlə anırıq. Fədakarcasına bütün çətinliklərə, beynəlxalq sistemin bəzi ünsürlərinin mane olmaq səylərinə baxmayaraq, PUA-ları milli imkanlarımızla yetişkin gənclərlə birlikdə ortaya qoymuşdur.

Bu müddət ərzində beşinci önəmli dərsimiz isə döyüş meydanında güclü olmaq, hər cür imkana sahib olmaq, savaşda da masadakı gücümüzü əsla itirməməkdir. Bu mənada Azərbaycan masada da güclü olmuşdur. Müharibə vəziyyətində belə, fikir və düşüncələrimizi ifadə edə biləcək gücə, təcrübəyə sahib olmağı vacib hesab edirik. Bu beş qənaət mənim şəxsən Qarabağ Zəfərindən çıxardığım nəticələrdir. İnşallah, bunların hər birində daha da qüvvətlənərək yolumuza davam edəcəyik".

AK Parti Sədrinin birinci müavininin fikrincə, bundan sonra sülh zamanıdır: "Sülhü təsis etmək də savaşı qazanmaq qədər çətin işdir. Ona görə də deyirik ki, bundan sonrakı onillər boyunca dünyanın ən önəmli bölgələrindən biri, Şərqlə Qərbin, Asiya ilə Avropanın keçid nöqtəsi olan Qafqazda sülhün bərqərar olmasını təmin etmək ortaq vəzifəmizdir. Bunun üçün də cənab Prezidentimizin ifadə etdiyi bu bölgənin altı ölkəsinin "altılıq platforması" şəklində çalışaraq işbirliyi imkanlarını artırmaq üçün mübarizə aparması qaçılmazdır. Bu mənada, ortada olan problemlərin həll olunması üçün bu müzakirə masası altılıq platforması çərçivəsində Qafqaza yeni bir perspektiv qazandıracaqdır. Qafqaza qazandırılacaq bu perspektivin də dünyada, bölgədə sülhün bərqərar olmasına töhfə verəcəyinə ürəkdən inanıram. İkincisi, Qarabağ azad olundu, amma indi Qarabağın abad olmaq zamanıdır. Bu gün gözəl bir təsadüfdür ki, Füzuli Beynəlxalq Hava Limanının açılmasını heyranlıqla və böyük təqdirlə izlədik. Zəngəzur və onun ətrafındakı iqtisadi dəhlizlərin açılması başda olmaqla Qarabağ bölgəsindəki, oranı abad edəcək hər cür çalışmada Türkiyə qeyd-şərtsiz qardaşı Azərbaycanın yanında duracaqdır. Ən qısa zamanda azad Qarabağın abad olmasını görmək mümkün olacaq. Qarabağ torpaqları əbədiyyətə qədər Azərbaycan torpağı olaraq qalacaq. Burada bu vəsilə ilə beynəlxalq aləmə də səslənmək üçün bunları söyləyirəm. Qarabağda indi abadlıq-quruculuq işləri görülür, amma təəssüf ki, acı həqiqət də var - orada on minlərlə mina mövcuddur. Bu minaların təmizlənməsi və orada təhlükəsiz şəkildə quruculuq fəaliyyətlərinin davam etdirilməsi üçün ermənilərin mina xəritələrini Azərbaycana vermələri qaçılmazdır. Beynəlxalq ictimaiyyətin ciddi şəkildə həm tələb etməsi, həm də bu yöndə ermənilərə təzyiq göstərməsi vacibdir.

Üçüncü vacib məsələyə toxunmaq istəyirəm. Onillər boyunca Asiya ilə Avropa arasındakı bağlantı, iqtisadi, logistik fəaliyyətlər və s. dünya iqtisadiyyatının və dünya siyasətinin əsas nöqtələrindən birinin də Qafqaz olduğunu ortaya çıxarır. Qafqaz bundan sonra dünya iqtisadi-siyasi sisteminin kilid nöqtəsində olacaq bölgələrdən biridir. Aydındır ki, bölgənin güclü bir aktoru olaraq bundan sonra Azərbaycan Qafqaz bölgəsində ortaya çıxacaq bütün iqtisadi-siyasi gəlişmələrin mərkəzində olmaq məcburiyyətindədir. Bu sadəcə öz gücünü, qüvvətini qorumaq, təmin etmək baxımında deyil, bu mənada dünyada inkişaf edən proseslərə təsir etmək baxımından Azərbaycanın önündəki önəmli bir vəzifədir.

Dördüncü məsələyə gəlincə, necə ki, Azərbaycan Qafqazın kilid nöqtəsidir, eləcə də dünyadakı bütün iqisadi-siyasi gəlişmələr, ən əsası son 10-15 ildir Türkiyəni öz bölgəsinin, yəni Qara dəniz, Şərqi Aralıq, Balkanlar və Orta Şərq coğrafiyasının vazkeçilməz ən böyük gücü halına gətirməkdədir. Türkiyə bu anlamda bu regional gücündən istifadə etmək üçün əlindəki bütün imkanlarını səfərbər etmişdir. Yenidən güclü bir Türkiyə istiqamətində addımlayır. Türkiyəni çox güclü sabahlara aparmaq üçün çalışacağıq. Dolayısı ilə Türkiyə üçün də önümüzdəki dönəmdə önəmli məsələ regional bir güc olaraq gücünü, dostlarının sayını artırmaqdır, bu bölgənin sülh adası olan önəmli ölkə olaraq varlığını gücləndirərək davam etdirməkdir. Yəni Qafqaz bölgəsində, bizim də içində olduğumuz bölgədə hər iki ayağımızı da - bir tərəfdə iqtisadi, bir tərəfdə siyasi - sağlam şəkildə yerə basaraq tarixin bizə verdiyi bu fürsətdən ən yaxşı şəkildə yararlanacağıq. Bunu da əlavə etmək istəyirəm ki, necə ki biz Türkiyənin güclü, böyük bir ölkə olaraq sülhün və əmin amanlığın mərkəzi halına gəlməsini arzu ediriksə, birilərinin də Türkiyənin gücləlnməsindən rahatsızlıq hiss etdiyi aşkardır. Bizim burada Türkiyə olaraq üzərimizə düşən vəzifə qorxmadan, çəkinmədən usanmadan doğru addımlar ataraq yolumuza davam etməkdir. Nümunə olaraq onlarca örnəyi sizə sadalaya biləərəm. Son günlərdə Türkiyədə yaşamaqda olduğumuz bu səfirlər məsələsi var. Təəssüf ki, səfirlərin əsas vəzifəsi fəaliyyət göstərdikləri ölkələrlə öz ölkələrinin arasındakı münasibətləri inkişaf etdirmək, əgər problemlər varsa, onları həll etməkdir. Bu mənada, Vyana Konvensiyası səfirlərin fəaliyyət göstərdikləri ölkələrin daxili işlərinə qarışmamalı olduqlarını bəyan edən bir sözləşmədir. Türkiyənin güclü bir şəkildə yürüməsindən, yürüyüşündən, güclü bir Türkiyə idarəsi ətrafında bütünləşməsindən narahat olanlar keçmiş zamanlardan qalan alışqanlıqları ilə barmaq silkələyərək Türkiyəni tabe etdirəcəklərini zənn etdilər. Amma başda cənab Prezidentimizin qərarlı duruşu sayəsində bu cəhdlərə qarşı Türkiyənin mənfəətlərini, haqqını, hüququnu qoruyan tərzdə mübarizə apardıq. Bu sözlərə qarşı Türkiyənin lazımlı addımları atacağını dünyaya elan etdik. Bunun nəticəsi olaraq 10 ölkənin səfiri geri addım atdı. Bu mənada, Vyana Konvensiyasının 41-ci maddəsini xatırlayaraq Türkiyənin daxili işlərinə müdaxilə etməyəcəklərini elan etdilər. Beləliklə, ortaya çıxan, böhran yaratma potensialı daşıyan cəhd neytrallaşdırılmış oldu. Bunu ona görə söyləyirəm ki, bundan sonra Türkiyə və Azərbaycan güclü və böyük ölkə olma hədəfi istiqamətində qarşısına çıxarılan bütün əngəlləri neytrallaşdıraraq irəliləmək bacarığını qazanmaq məcburiyyətindədir. Bunun şifrəsi də doğru və haqlı olduğumuz mövzularda əsla geri addım atmamaqdır. Qorxmadan, usanmadan beynəlxalq münasibətlərin bütün qaydalarına riayət edərək, heç kimə haqsızlıq etmədən, amma heç kimə də haqqımızı yedirmədən yolumuza davam etməkdir. Bu anlamda, dördüncü olaraq sözləyəcəyim budur. Türkiyənin də bir regional güc olaraq üzərinə düşən budur.

Az əvvəkli filmdə də əks olunan cənab Prezidentimizin bir cümləsini bir daha xatırlatmaq istəyirəm: "Güclü Türkiyə güclü Azərbaycan deməkdir. Güclü Azərbaycan da güclü Türkiyə deməkdir".

Numan Kurtulmuş son olaraq diqqətə çatdırıb ki, önəmli məqamlardan biri bundan sonrakı zaman içərisində sürətli şəkildə inkişaf edən Türkiyə-Azərbaycan münasibətlərinin hər sahədə inkişaf etdirilməsi, irəliyə doğru aparılmasıdır. Onun fikrincə, iki partiya arasındakı bu münasibətlər mükəmməl bir şəkildə irəliləyir: "Xüsusilə, Şuşa Bəyannaməsinin imzalanmasından sonra Türkiyə-Azərbaycan münasibətləri yeni bir fazaya keçmişdir. Bundan irəli gələn vəzifələr çərçivəsində bütün imkanlarımızı - iqtisadi, mədəniyyət, siyasət, ticarət, nəqliyyat sahəsində imkanlarımızı, gücümüzü səfərbər edərək, inşallah, Türkiyə-Azərbaycan münasibətlərini çox daha güclü hala gətirmək məcburiyyətindəyik. Zəngəzur dəhlizinin açılması bu münasibətləri sürətli inkişafına vəsilə olacaq. Bizim insanlarımız, sadəcə, rəsmi heyətlərimiz deyil, insanlarımız, tələbələrimiz, ticarətlə məşğul olanlar gedib-gələcəklər, ortaq layihələr reallaşdırılacaq.

***Ardı Səh. 7***

# YAP və AK Partinin birgə təşkilatçılığı ilə "Qarabağ savaşı: Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi" mövzusunda videokonfrans keçirilib

**Əvvəli Səh. 6**

Bu layihələrdən ortaq qazanclar əldə edəcəyik və inşallah, önümüzdəki dönəmdə də vacib hesab etdiyim bu məsələni də birgə gerçəkləşdirmiş olacağıq. Mən bu vəsilə ilə konfransımızın da iki ölkə arasındakı münasibətlərə müsbət töhfə verəcəyinə inanıram".

Videokonfransda Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov çıxış edərək bildirib ki, şəhidlərimizin qanı ilə torpaqlarımızın işğaldan azad edilməsi və bu mübarizədə Türkiyənin mənəvi və siyasi dəstəyi birliyimizin parlaq nümunəsidir. Onun sözlərinə görə, bu il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək zirvəsidir: "İyunun 16-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan parlamentimizdə çıxış edərək tarixi fikirlər səsləndirdi. O dedi ki, "Müqəddəs Vətən müharibəsi dövründə Türkiyə dövlət və millət olaraq Azərbaycanın yanında yer aldı. Bu gün də bütün imkanlarımızla Azərbaycanın yanındayıq, sabah da yanında olacağıq. Azərbaycanın aydınlığı aydınlığımız, sevinci sevincimiz, azadlığı azadlığımız, taleyi taleyimiz, kədəri kədərimizdir". Ümumiyyətlə, Mustafa Kamal Atatatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", ulu öndər Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fikirləri hər iki ölkədə dillər əzbəridir. Ölkələrimizin birliyini təcəssüm etdirən bu fəlsəfə bu gün prezidentlər İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın regionda və dünyada yaratdığı reallıqlarla özünü ifadə edir. Biz sevincimizlə, kədərimizlə, birgə tariximizlə, mədəniyyətimizlə, ortaq siyasətimizlə gələcəyə doğru irəliləyirik. Ən aktual şüarımız isə "Azərbaycanın gücü Türkiyənin gücüdür, Türkiyənin gücü isə Azərbaycanın gücüdür" şüarıdır".

S.Seyidovun sözlərinə görə, Türkiyə-Azərbaycan münasibətləri müasir beynəlxalq münasibətlər sisteminə yeni nəfəs gətirib: "Məsələ ondan ibarətdir ki, müasir beynəlxalq münasibətlər sistemində hər hansı regionda bir ölkənin güclənməsinin başqa ölkələrin müstəqilliyinə təhdid yaratdığını görürük. Təəssüf ki, bir birinə yaxın ölkələr belə bir reallığı yaşayırlar. Misal olaraq, Rusiya ilə Ukrayna arasında olan mövcud münasibətləri göstərmək olar. Eyni kökə, tarixə sahib olan qonşu dövlətlərin arasında bu gün ciddi problemlər var. Digər misalı Ermənistan və Rusiya münasibətləri kontekstində deyə bilərik. Uzun illərdir bu ölkələrin yaxın münasibətləri var. Amma bu münasibətlər bərabər səviyyədə əlaqələrin yaradılması əsasında təşkil olunmayıb. Ermənistan faktiki olaraq öz müstəqilliyini itirmiş vəziyyətdədir. Onun iqtisadiyyatı, hərbi durumu və s. özündən asılı deyil. Ermənistanın gələcəyi birbaşa Azərbaycan və Türkiyə ilə münasibətlərinin normallaşmasından asılıdır. Bu, Ermənistan üçün tarixi şansdır. Təsadüfi deyil ki, bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyev də MDB Dövlət Başçıları Şurasının iclasında qeyd etdi ki, Ermənistan bu tarixi şansı itirməməlidir. Ermənistanın real dövlət kimi gələcəyi məhz Türkiyə və Azərbaycanla bağlıdır. Bu baxımdan, Zəngəzur dəhlizinin açılması ilə bağlı görülən işlər, infrastruktur layihələrinin həyata keçirilməsi çox önəmlidir.

Beynəlxalq münasibətlər sistemində problemlər Avropa İttifaqı müstəvisində də özünü göstərir. Tərəqqini, inkişafı, bərabərliyi təbliğ edən Avropa İttifaqı bu gün öz üzvü olan Macarıstana və Polşaya qarşı sanksiya tətbiq etməyi düşünür. Bu ölkələrin müstəqilliyi sual altına düşür. Bu yaxınlarda İtaliyanın məhşur bir professorunun İtaliya-Avropa İttifaqı münasibətlərinə həsr olunmuş məqaləsini oxudum. O, məqələdə yazır ki, Avropa İttifaqı avronu tətbiq etməklə bizi aldatdı, İtaliyanı iqtisadi cəhətdən çökdürdülər ki, bunun da adı siyasi xəyanətdir. Göründüyü kimi, Avropa İttifaqının üzvü olan ölkələr də bir biriləri ilə dil tapa bilmirlər. Onlardan biri yüksəldikcə, digərinin marağını nəzərə almır. Eyni zamanda, Aİ-nin və Avropa Şurasının Azərbaycana və Türkiyəyə qarşı təpkiləri, müstəqil məhkəmə sisteminə qanunsuz müdaxilə cəhdləri, təzyiqləri, ölkələrimizin müstəqil siyasətinə qarşı çıxmaq cəhdləri qəbuledilməzdir. Bu yaxınlarda Türkiyədə bir sıra ölkələrin səfirlərinin səlahiyyətlərini aşaraq müstəqil məhkəmə sisteminə müdaxilə etmək cəhdlərinin şahidi olduq. Doğrudur, onlar geri çəkildilər, Vyana Konvensiyasının 41-ci maddəsinin önə çıxması ilə Türkiyədən faktiki olaraq üzr istədilər. Amma bu cəhdlərindən də əl çəkmirlər. Bu misallardan göründüyü kimi beynəlxalq münasibətlər sistemində bir tendensiya üzə çıxır. Yəni, hansısa ölkə güclənirsə, digər ölkənin milli maraqlarını nəzərə almır və ya ona zidd hərəkət edir. Amma biz Türkiyə və Azərbaycanın siyasətində fərqli məqamlar görürük. Belə ki, hər iki ölkə öz milli maraqlarını vahid maraqlar kimi qəbul edib qoruyur. Xatirinizdədirsə, Azərbaycan Prezidenti İlham Əliyev 2014-cü ildə Aİnin Şərq Tərəfdaşlığı sammitində Ermənistan prezidentinin Türkiyəyə qarşı çıxışına cavab olaraq "Burda Türkiyə yoxdur, amma mən varam" dedi və onu susdurdu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bu ilin iyun ayında Milli Məclisdə çıxışı zamanı bəyan etdi ki, "Türkiyə həm dövlət, həm də millət olaraq bütün qəlbi ilə Azərbaycanın yanındadır". Bütün bunlar birliyimizin göstəricisidir".

Milli Məclisin komitə sədri qeyd edib ki, Azərbaycanla Türkiyənin həyata keçirdiyi siyasət beynəlxalq münasibətlər sistemi üçün nümunə olmalıdır və artıq bu siyasət regionda başqa ölkələr tərəfindən qəbul olunmağa başlayıb: "Bizim zəfərimizin fəlsəfəsi bundan ibarətdir ki, bu siyasət öz düzgünlüyünü təsdiq edib. Bu gün Azərbaycan-Türkiyə-Gürcüstan münasibətləri strateji əhəmiyyət kəsb edən əlaqələrə çevrilib. Bu yaxınlarda 3 ölkənin parlamentinin komitə sədrləri olaraq Türkiyədə görüşdük və Azərbaycan, Türkiyə və Gürcüstanın Parlament Assambleyasının yaradılmasını müzakirə etdik. Eyni zamanda, Türkiyə-Rusiya-Azərbaycan münasibətləri də yüksək mərhələsini yaşayır. Bu, çox vacib məsələdir. Bundan başqa, bilirsiniz ki, bu yaxınlarda Azərbaycanla İran arasında müəyyən gərginlik yaşandı. Amma apardığımız siyasət öz düzgünlüyünü təsdiq etdi və həmin gərginlik arxada qaldı. Bütün bunlar göstərir ki, regionda Azərbaycanla Türkiyənin həyata keçirdiyi siyasətin alternativi yoxdur".

Vətən müharibəsində qələbəmizin bütün region, o cümlədən Ermənistan üçün yeni imkanlar açdığını deyən Səməd Seyidov bu fikrini siyasətimizin düzgünlüyü ilə əsaslandırıb. O həmçinin diqqətə çatdırıb ki, Azərbaycan-Türkiyə münasibətlərinin yüksələn xətlə inkişafı Mərkəzi Asiyada türkdilli dövlətlər üçün də kifayət qədər cəlbedici görünür və onların da maraqlarına uyğundur.

Milli Məclisin komitə sədri vurğulayıb ki, Naxçıvanda əsası qoyulan Türk Şurası bu gün inkişaf edir: "Hesab edirəm ki, Türk Şurasının ən yüksək zirvəsi Şuşa Bəyannaməsidir. Şuşa Bəyannaməsi bizim üçün bir yol xəritəsidir ki, Azərbaycan və Türkiyə ilə yanaşı digər türkdilli ölkələri də güclü birliyə dəvət edir. Bu siyasətimizin uğurları digər qardaş türkdilli ölkələrin ortaq maraqlarına xidmət edir. Bunu Azərbaycanla Türkiyə öz siyasətləri ilə təsdiqləyirlər. Digər bir vacib məqam ondan ibarətdir ki, ölkələrimizin müstəqilliyinin möhkəmlənməsi bizi daha da birləşdirir. Yəni birimiz nə qədər güclüyüksə, digərimiz də o qədər güclənir. Vətən müharibəsində zəfərimizi birliyimiz sayəsində qazandıq. İlk dəfə idi ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri beynəlxalq birlik tərəfindən həyata keçirilmədi. Həmin qətnamələri öz birliyimiz sayəsində icra etdik. Bundan sonra da, beynəlxalq hüququ həm masada, həm də savaşda müdafiə etməliyik. Düşünürəm ki, Azərbaycan və Türkiyə olaraq bundan sonra da gələcək uğurlarımız birliyimizdən asılı olacaq. Bizim siyasətimiz regionda və dünyada sülhə, sabitliyə və rifaha xidmət edir. Bu baxımdan, hesab edirəm ki, gələcəyimiz də uğurludur".

AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini, Bursa millət vəkili Efkan Ala çıxışında bildirib ki, qardaş Azərbaycan Qarabağda cənab Prezident İlham Əliyevin məharətli rəhbərliyi və qətiyyətli iradəsi ilə 44 günlük qısa müddətdə tarixi Zəfər qazandı: "Qazanılan bu Zəfərin birinci ildönümü münasibətilə bir daha qəhrəman Azərbaycan Ordusunu və xalqını təbrik edirəm. Torpaqların azadlığı uğrunda canlarını fəda edən şəhidlərimizi rəhmətlə anır, qazilərimizə cansağlığı diləyirəm. Qazanılan Zəfərin ardından təxminən 1 milyon qaçqın soydaşımıza ata-baba yurdlarına, evlərinə dönüş yolunda müvəffəqiyyətlər arzulayıram. Bildiyimiz kimi, 44 günlük Vətən müharibəsində başda cənab Prezidentimiz olmaqla 84 milyon vətəndaşımız qardaş Azərbaycanın yanında olmuş, hər cür dəstək göstərmiş və dualarını əsirgəməmişdir. Sadəcə, Qarabağ Zəfəri deyil, tariximizdə birlikdə qazandığımız ortaq qələbələrimiz də taleyimizin birliyinin ortaq təməlini yaratmaqdadır. Qafqaz İslam Ordusunun azərbaycanlı qardaşlarımızla birlikdə göstərdiyi mübarizə nəticəsində Bakının azad edilməsini hər an qürurla xatırlayırıq. Digər tərəfdən, Çanaqqalada azərbaycanlı qardaşlarımızın müstəqillik mübarizəmizdə göstərdikləri dəstək də tariximizə qardaşlığımızın nişanələrindən biri olaraq həkk olunmuşdur. 15 iyul 2016-cı ildə yaşadığımız mənfur çevriliş cəhdindən sonra da azərbaycanlı qardaşlarımız dəstəyini əsirgəməmişlər. Eyni zamanda, bu il ölkəmizdə baş verən meşə yanğınları ilə mübarizədə azərbaycanlı qardaşlarımızın dəstəyi və mübarizəsi millətimiz tərəfindən təqdirlə qarşılanmışdır. COVID-19 pandemiyası dönəmində də biz Azərbaycana dəstək göstərərək qardaşlığımız üçün lazım olanı etdik və eyni şəkildə də qarşılıq gördük. Bütün bunlar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevdən bizə miras qalan "Bir millət, iki dövlət" şüarının real həyatda təsdiqidir".

Efkan Ala deyib ki, işğaldan azad olunan bölgələrin təhlükəsizliyinin və yenidən bərpa-quruculuq işlərinin həyata keçirilməsində də Azərbaycana dəstək olmaqdan məmnuniyyət və xoşbəxtlik hissi duyuruq, bunu ali vəzifə hesab edirik: "Bu baxımdan, tədbirlər planı çərçivəsində işğaldan azad olunan torpaqların dirçəlməsinə səy göstərilir. Yanvarın 30-da Ağdamın işğaldan azad olunmuş Mərzili kəndi yaxınlığında Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyəti ilə də bölgədə sabitliyin, təhlükəsizliyin təmin olunmasına öz töhfəmizi vermiş oluruq. Bu gün cənab Prezidentimiz Rəcəb Tayyib Ərdoğan Azərbaycana son bir ildə üçüncü səfərini gerçəkləşdirərkən cənab Prezident İlham Əliyev ilə birlikdə açılışını etdikləri bir ildən qısa müddətdə ərsəyə gələn "Zəfər yolu" və Füzuli Beynəlxalq Hava Limanı kimi önəmli layihələrin həyata keçirilməsinə qürurla şahidlik edirik. Füzuli Beynəlxalq Hava Limanı bölgənin inkişafında və yüksəlişində çox önəmli rol oynayacaq. Zəngilanın Ağalı kəndində inşa edilən Azərbaycan-Türkiyə "Qardaşlıq bağı" da kənd təsərrüfatı sahəsindəki işbirliyimizi göstərməkdədir. Cənab Prezident İlham Əliyevin güclü rəhbərliyi altında 30 illik işğaldan azad edilən ərazilər küllərindən yenidən doğulur və inşa edilir. Xüsusilə, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının qurulması ilə bölgənin iqtisadi inkişafının təmin olunduğunu görəcəyik. Bərpa-quruculuq müddətində azərbaycanlı qardaşlarımıza dəstək göstərməyə davam edəcəyik".

"Sabitlik və təhlükəsizliyin önündəki ən önəmli əngəl olan işğalın sona çatması ilə yeni fürsətlər yaranmışdır. Qarabağ Zəfərindən sonrakı yeni reallıqları nəzərə alaraq bölgəmizdə daha yaxşı qonşuluq münasibətlərinin qurulmasını arzu edirik. Bu baxımdan Cənubi Qafqazın münaqişə və gözyaşı ilə deyil, sabitlik və rifahla anılması üçün çalışırıq və cəhd göstəririk. Azərbaycanla bərabər yer aldığımız üçtərəfli və dördtəfli mexanizmlərin regional məsələlər üçün müsbət nəticələr əldə etdik. Cənab Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezidenti cənab İlham Əliyevin xüsusi önəm verdiyi və hazırda gündəmdə olan regional əməkdaşlıq qurulduğu təqdirdə, bu inkişafın regional iqtisadiyyatın canlanmasına və sosial rifahın artmasına müsbət təsirlərinin olacağı mütləqdir. Bu günə qədər Ermənistan regional əməkdaşlıqdan kənarda qalaraq ən böyük zərəri özünə vurub. 2021-ci il yanvarın 11-də Azərbaycan, Ermənistan və Rusiya Federasiyası arasında imzalanan üçtərəfli Bəyanatda nəzərdə tutulmuş nəqliyyat xətlərinin regionda fəaliyyətə başlamasını və iqtisadi fəaliyyətlərin sürətlənməsini arzu edir və dəstəkləyirik. Türk Hava Yolları və Azərbaycan Hava Yollarının Ermənistan hava sahəsi üzərindən uçuşlarının gerçəkləşdirilməsi normallaşma istiqamətində atılan müsbət addımlardır.

Cənab Prezidentimiz Ermənistanın səmimi və konstruktiv addımlar atdığı təqdirdə, münasibətlərimizi ehtiyatla və tədricən normallaşdıra biləcəyimizi vurğulamışdır. Prezident cənab İlham Əliyevin sağlam düşüncəli və tolerant mesajlarını da təqdirlə qarşılamaq və dəyərləndirmək lazımdır. Azərbaycanın Ermənistanla hərtərəfli sülh sazişi imzalanması təklifini də dəstəkləyirik. Əlbəttə ki, normallaşma müddətini Azərbaycanla birlikdə davam etdirəcəyik. İşğal dönəmində Ermənistan tərəfindən yerləşdirilən minaların bölgənin təhlükəsizliyinin önündəki ən önəmli təhlükələrdən biri olduğunu hər platformada ifadə etməyə davam edəcəyik. Türkiyə istər mütəxəssis, istərsə də təchizat dəstəyi göstərərək minaların təmizlənməsi prosesində aktiv rol oynamaqdadır. Minalar səbəbindən mülki şəxslər arasında itkilər olduğunu, bəzi qardaşlarımızın da yaralandığını kədərlənərək öyrənirik. Ötən dövr ərzində Azərbaycana təqdim edilən mina xəritələrinin düzgünlüyün 25 faiz səviyyəsində olması problemin həllini çətinləşdirir. Ermənistanın tam və doğru mina xəritələrini təqdim etməsi həm səmimiliyinin göstəricisi, həm inam formalaşması üçün vacib addım olacaq, həm də bölgədə itkilərin qarşısını alacaq.

***Ardı Səh. 8***

Əvvəli Səh. 7

15 iyun tarixində prezidentlərimizin Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada imzaladıqları Bəyanamə ilə müttəfiqliyimizin zəmini gücləndirilərək tarixi addım atılıb. Şuşa Bəyannaməsi ölkələrimizin maraqlarını təmin edən bütün sahələrdə bizim üçün yeni vəzifələr müəyyənləşdirir. Siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsini, yüksək səviyyəli qarşılıqlı səfərlərin vacibliyini ortaya qoymaqdadır. Bununla yanaşı, 1 aprel tarixindən Türkiyə və Azərbaycan arasında şəxsiyyət vəsiqəsi ilə səfərlərin başlaması sıx təmaslarımızı daha da artıracaq. Bu, qardaşlığımıza layiq olan bir addımdır. Pandemiyadan sonra şəxsiyyət vəsiqəsi ilə səfərlərin artmasını müşahidə edəcəyik. Siyasi əlaqələrimizlə yanaşı, iqtisadi əlaqələrimizin gücləndirilməsi baxımından 1 mart 2021-ci il tarixindən qüvvəyə minən asanlaşdırılmış ticarət sazişini vacib bir addım olaraq qiymətləndiririk. Bununla yanaşı, qısa zaman ərzində sərbəst ticarət sazişinin imzalanmasını arzu edirəm. 15 milyard qarşılıqlı ticarət dövriyyəsinə çatmaq üçün lazımi potensial və siyasi iradəmiz var. Qarşılıqlı olaraq 30 milyard dollar olan investisiyalarımızla azərbaycanlı qardaşlarımıza iş imkanları təmin etməkdəyik. Ölkəmizdə də "Star" zavodu kimi nəhəng layihələrlə vətəndaşlarımıza iş imkanları təmin edirik. Dövlətlərimiz üçüncü ölkələrə də investisiya qoyurlar",-deyə Efkan Ala əlavə edib.

Onun sözlərinə görə, Şuşa Bəyannaməsindəki digər bir vacib məsələ isə Azərbaycan ilə müdafiə sənayesi sahəsindəki əməkdaşlığın sadəcə tədarük deyil, texnologiya mübadiləsi və ortaq istehsalı da əhatə edəcək şəkildə genişləndirilməsinin proqnozlaşdırılımasıdır: "Bundan başqa, imzaladığımız sazişlərdə müəyyən olunan öhdəliklər çərçivəsində Azərbaycan Ordusu ilə hərbi təlimlər davam etməkdədir. "Sarsılmaz Qardaşlıq-2021" birgə təlim oktyabr ayının əvvəlində uğurla başa çatdırılıb. Qarabağ zəfəri sonrasında "Türk qapısı" adlandırdığımız Naxçıvanın strateji əhəmiyyəti daha da artıb. Xüsusilə, Naxçıvanla Azərbaycanın Qərb rayonları arasında Zəngəzur dəhlizi vasitəsilə yaradılacaq əlaqə ölkələrimizi daha da yaxınlaşdıracaqdır. Zəngəzur dəhlizi ölkələrimizi birləşdirməklə yanaşı, qardaş türk respublikaları ilə əlaqələrimizi daha da asanlaşdıracaq. Zəngəzur dəhlizi vasitəsilə yaradılacaq əlaqə Bakı-Tbilisi-Qars dəmiryolu xətti ilə beynəlxalq Şərq-Qərb nəqliyyat dəhlizinin orta koridoru çərçivəsində vacib fayda verəcək. Son zamanlar Naxçıvana istiqamətlənmiş enerji və nəqliyyat layihələrimizi də həyata keçirmək üçün çalışırıq. Iğdır-Naxçıvan təbii qaz boru kəməri və Qars-Naxçıvan dəmiryolu layihələri əlaqələrimizin inkişafına mühüm fayda verəcək. Dövlətlərimiz arasında olduğu kimi, YAP və AK Parti arasındakı əlaqələr hər ötən gün inkişaf etməkdədir. Məlum olduğu kimi, partiyalarımız arasında imzalanan əməkdaşlığa dair niyyət protokolu bu məqsədə hesablanıb. Protokolun partiyalarımız, dolayısı ilə ölkələrimiz arasındakı əməkdaşlığa daha çox fayda gətirməsini arzu edirəm. Bir daha qardaş Azərbaycan xalqının 8 noyabr - Zəfər Gününü təbrik edirəm".

Videokonfransda çıxış edən "Yeni Azərbaycan" qəzetinin şöbə redaktoru Nurlan Qələndərli Azərbaycan xalqının ədalətli, şərəfli, təntənəli və qürurlu milli mübarizəsi kimi tarixə düşən 44 günlük İkinci Qarabağ müharibəsinin şanlı tariximiz, iftixar mənbəyimiz olduğunu diqqətə çatdırıb: "Biz İkinci Qarabağ savaşını haqlı olaraq Vətən müharibəsi adlandırırıq. Çünki bu, Vətənin bütövlüyü - ölkəmizin suverenliyinin tam təmin olunması uğrunda başlanmış və uğurla başa çatdırılmış Zəfər yürüşüdür. Bu şanlı qələbə sayəsində təkcə Azərbaycanın ərazi bütövlüyü və tarixi ədalət deyil, eyni zamanda, milli qürurumuz, milli ləyaqətimiz bərpa olundu. Eyni zamanda, qüdrətli Azərbaycan dövləti erməni faşizminin başını əzməklə - belini qırmaqla, separatizmi məhv etməklə, təcavüzkarları döyüş meydanında layiqincə cəzalandırmaqla bəzi geosiyasi mərkəzlərin ikili standartlara əsaslanan siyasətini iflasa uğratdı".

# YAP və AK Partinin birgə təşkilatçılığı ilə "Qarabağ savaşı: Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi" mövzusunda videokonfrans keçirilib

O əlavə edib ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnən tarixi Qələbə təkcə döyüş meydanında əldə edilməyib, bu, beş mühüm istiqamətdə aparılan strateji fəaliyyətin real nəticəsidir: "Prezident İlham Əliyevin milli maraqlara əsaslanan, çoxvektorlu və praqmatik xarici siyasət kursu, məqsədyönlü informasiya - təbliğat və strateji diplomatiya siyasətinin həyata keçirilməsi, ölkənin iqtisadi müstəqilliyinin təmin olunması və maliyyə gücünün artırılması, milli həmrəyliyin gücləndirilməsi və nəhayət, hərbi potensialın - müdafiə qabiliyyətinin artırılması Azərbaycanı möhtəşəm Zəfərə aparan fundamental amillər qismində çıxış etdi. Son sözü isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz tarixi missiyasını şərəflə və peşəkarlıqla yerinə yetirən qüdrətli Azərbaycan Ordusu dedi: "Qarabağ Azərbaycandır!".

N.Qələndərli diqqətə çatdırıb ki, Azərbaycan təkcə döyüş meydanında zəfər qazanmayıb, eyni zamanda, informasiya cəbhəsində mütləq üstünlüyü ələ alıb: "Prezident İlham Əliyevin rasional strategiyası nəticəsində ölkəmiz həm müharibədən əvvəl, həm İkinci Qarabağ savaşı zamanı, həm də postkonflikt mərhələsində informasiya savaşında mühüm uğurlar əldə edib. Xüsusilə də, Prezident İlham Əliyev həm müxtəlif beynəlxalq tribunalardan səmərəli istifadə etməklə, həm nüfuzlu transmilli media orqanlarına müsahibələri, həm də xalqa müraciətləri ilə reallıqları dünya ictimaiyyətinin diqqətinə sistemli şəkildə və dolğun surətdə çatdırıb. Dövlət başçısının səsləndirdiyi fikirlər həm xalqın ruh yüksəkliyini artırıb, həm milli həmrəyliyin güclənməsini təmin edib, həm də milli media təsisatlarımız üçün mühüm "yol xəritəsi" və strateji istiqamətləri müəyyən edən paradiqma olub. 44 günlük Vətən müharibəsi dövründə Prezident İlham Əliyevin Azərbaycan xalqına çox sayda müraciət etməsi, 30-dan artıq xarici KİV-ə müsahibə verməsi, Azərbaycanın haqlı mövqeyini, reallıqları sistemli şəkildə, siyasi uzaqgörənliklə yerli və beynəlxalq auditoriyanın diqqətinə çatdırması Ermənistanın erməni lobbisi və xaricdəki havadarlarına əsaslanaraq yenidən özü üçün münbit informasiya mühiti yaratmaq niyyətini iflasa uğradıb. Beləliklə, uğurlu informasiya siyasəti nəticəsində Ermənistanın "feyk nyus" taktikası da darmadağın edilib. Bu müddət ərzində dünya mətbuatında Prezident İlham Əliyevin xalqa müraciətləri və müsahibələrində əksini tapmış fikirlərinə istinad olunmaqla Azərbaycanın haqlı, ədalətli mövqeyini əks etdirən çoxsaylı informasiyanın və analitik materialların dərc olunması da çox mühüm əhəmiyyətə malikdir. Bu, şübhəsiz ki, informasiya müharibəsində Azərbaycanın mütləq üstünlüyünü və qələbəsini təmin edən başlıca strateji amillərdəndir. Bir sözlə, informasiya cəbhəsində də üstünlüyünün təmin edilməsi möhtəşəm Qələbəmizin qazanılmasında müstəsna yerə və rola malikdir",-deyən "Yeni Azərbaycan" qəzetinin şöbə redaktoru əlavə edib ki, Türkiyə mediasının 44 günlük savaşdan öncə, müharibə ərəfəsində və sonrakı dövrdə Azərbaycana birmənalı dəstəyi erməni yalanlarının ifşası və ölkələrimizə qarşı dezinformasiya siyasətinin neytrallaşdırılması, qara piar kampaniyasının fiaskoya uğradılması baxımından çox önəmlidir.

N.Qələndərli onu da qeyd edib ki, bu gün həm Azərbaycan, həm də Türkiyə mediasında diqqət mərkəzində olan mühüm məsələlərdən biri hakim partiyalar - YAP ilə AK Parti arasında təmasların intensiv xarakter daşımasının əhəmiyyətidir. "Bu, siyasi ekspertlər tərəfindən də yüksək qiymətləndirilir. Çünki daimi, səmərəli və faydalı təmaslar, çoxşaxəli əlaqələrin əhatə dairəsinin qarşılıqlı səfərlər vasitəsilə genişləndirilməsi çox böyük önəmə malikdir. Bu, bir millətin iki dövləti arasında dostluq, qardaşlıq və strateji tərəfdaşlığa əsaslanan, zirvədə olan münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət edir. Həmçinin bu proses qlobal informasiya platformasında hər iki ölkənin maraqlarının müdafiə olunmasına, dezinformasiyaların qarşısının alınmasına müstəsna töhfədir. Nəhayət, YAP-AK Parti əlaqələrinin dinamik xarakter daşıması nəticəsində siyasi leksikonumuza yeni anlayış - "partiya diplomatiyası" ifadəsi daxil olub. Partiya diplomatiyası, heç şübhəsiz, praqmatik xarici siyasət kursunun və dərin strateji diplomatiyanın tərkib hissəsi kimi milli maraqların təmini və ortaq hədəflərin gerçəkləşdirilməsi kontekstində çox önəmli və təsirli vasitədir",-deyən N.Qələndərlinin sözlərinə görə, obyektiv təhlillər aparan beynəlxalq media orqanlarında da ifadə edildiyi kimi, Türkiyə-Azərbaycan birliyi bu gün bütün dünyada ən uğurlu geopolitik ittifaq nümunəsidir. Postmüharibə dövründə iki ölkənin birgə təşəbbüsləri regionda dayanıqlı sülhün, etibarlı təhlükəsizliyin və çoxşaxəli əməkdaşlığın təmin olunmasına xidmət edir.

"Bu qədər dəyərli dövlət xadimləri və siyasətçilərdən sonra danışmaq bir az çətin olacaq. Mən bu məsələlərin siyasi tərəfinə çox da toxunmayacam. Proseslərin hərbi və geosiyasi tərəfləri ilə bağlı sözlərim olacaq. İlk növbədə bunu qeyd etməliyəm. Qələbə həm Azərbaycan, həm Türk dünyası, həm insanlıq, həm də haqqını axtaran günahsız insanlar üçün son dərəcə dəyərlidir, böyük bir ruh yüksəkliyi verdi. Həqiqətən də, Azərbaycan son dərəcə güclü, arxası sağlam olan bir düşmənə qarşı əks-hücum etmək məcburiyyətində qaldı. Bu dünyada ən çətin fəaliyyət formalarından biridir Amerika Birləşmiş Ştatlarının İraqda apardığı 8 illik müharibə dövründə 350 min kilometr ərazidə əsgər itkilərinin sayı 4147 nəfərdir. Lakin 44 gün davam edən İkinci Qarabağ müharibəsinə diqqət yetirdikdə 12 min kvadrat kilometr ərazidə aparılmasına baxmayaraq, 2908 şəhidimiz olduğunu görürük. Bu rəqəmlər belə müharibənin nə qədər sürətli, nə qədər sarsıdıcı olduğunu göstərdi. Müharibənin digər tərəfi isə ermənilərin cəsarət edib açıqlaya bilmədiyi və gizlətdiyi itkilərdir. Mənim aldığım məlumatlara görə, ermənilərin bu müharibə dövründə itkilərinin sayı 7 minlə 11 min arasındadır. İndi bu rəqəmlərin önəmli tərəfi də var. Adətən hücum edən tərəfin itkiləri müdafiə edən tərəflə müqayisədə üç qat daha çox olmalı olduğu halda, Azərbaycan tərəfi müharibəni professional səviyyədə apardığına görə erməni tərəfi ilə müqayisədə itkiləri üç dəfə azdır. Bu, müharibənin necə məharətlə aparıldığının ən əsaslı və ən böyük sübutlarından biridir". Bu fikirləri isə videokonfransda Bahçeşehir Universitetinin müəllimi, terror və təhlükəsizlik məsələləri üzrə ekspert Abdullah Ağar deyib.

O deyib ki, müharibənin qazanılmasında Türkiyənin mənəvi və siyasi dəstəyinin böyük rolu var: "Hər halda, Türkiyənin savaş zamanı ola biləcək bir problem halında hər cür dəstəyi verəcəyini bəyan etməyi, həm müharibənin gedişində, həm də xarici təsirlərdən qorumaq baxımından böyük əhəmiyyət kəsb etmişdir. Birliyimiz və bərabərliyimizin önəmi bundan sonrakı dövrlərdə çox böyük dəyər və əhəmiyyət kəsb edir. Bir həqiqət də budur ki, erməni tərəfinin müharibədə beli qırılıbdır. Lakin diqqət yetirdikdə görürük ki, ermənilər müharibə aparmaq istəyini davam etdirməyə çalışır. Hələ də bir gözlənti içərisindədirlər. Digər tərəfdən, həm də son dərəcə narahat olan xarici mərkəzlərin varlığından hamımız xəbərdarıq. Yəni bir az əvvəl Səməd müəllimin də söylədiyi kimi, bəzi ölkələr müharibədən və onun nəticəsi olaraq qazanılan Zəfərdən son dərəcə narahatdırlar. Bunu da söyləmək vacibdir ki, qarşı-qarşıya qaldığımız təhdid Azərbaycanın parçalanmasını hədəfləyən təhdiddir. Xüsusilə, general Polad Həşimovun şəhid olduğu iyul hadisələrində Ermənistanın törətdiyi təxribat Türkiyəni, türk dünyasını maraqlandıran regional layihələri - Bakı-Tbilisi Ceyhan təbii qaz boru xəttini, Türkiyə ilə Azərbaycan arasında avtomobil və dəmir yollarını təhlükə altında saxlamağa yönəlmişdi. Bundan sonrakı proseslər gərgin olaraq davam etdi və müharibəyə çevrildi. Müharibənin dünyada enerji geosiyasəti ilə bağlı gedən mübarizə zamanı, xüsusilə də Türkiyənin daxil olduğu Şərqi Aralıq dənizində, Liviyada, Egeydə gedən mübarizələr ilə paralel olaraq baş verməsi xüsusi vurğulanmalıdır. Bu müharibə böyük məharətlə idarə edildi. Həqiqətən, Azərbaycan Ordusunun apardığı bu müharibə son dərəcə qiymətli, mənalı və dəyərlidir. Niyə? Əsas səbəb budur: Dünyada indiyə kimi belə müharibə olmayıb. Birinci, ikinci, üçüncü nəsil müharibələrin özünəməxsus xüsusiyyətləri var. Amma, bu müharibə 5-ci nəsil müharibənin erkən mərhələsidir. Həm də keçmişdə baş verən bütün müharibələrin özəlliklərini özündə daşıya bilir. Xüsusi təyinatlı qüvvələrin və digər qüvvələrin də rolu böyükdür. Dünyada heç bir zaman istifadə olunmayan müharibə, yəni 5-ci nəsil müharibədir. Bu da bir həqiqətdir ki, Qarabağ zəfəri müharibənin fəlsəfəsini, paradiqmalarını, doktrinasını, konsepsiyasını və taktikalarını dəyişdirməyə başladı. Bu müharibə bütün dünya orduları üçün vacib dərsdir. Hər kəs Azərbaycanın döyüş taktikasını öyrənməyə çalışır. Bu, müharibə təkcə pilotsuz uçuş aparatları ilə qazanılmadı. Düzdür, PUA-lar qələbəyə təsir göstərdi. Amma həm də Azərbaycan Ordusu nizam-intizamı ilə böyük bir müharibə fəlsəfəsi yaratdı. Müharibə konsepsiyalarında bir sıra dəyişiklərə yol açdı. PUA-larla bərabər hava hücumundan müdafiə sistemlərindən, döyüş kəşfiyyatından. komanda və idarəetmə sistemlərindən, istifadə müharibənin ən əsas xüsusiyyətlərindən biridir".

"Ermənilər hakim olduqları ərazilərdə çox möhkəm istehkamların içərisində çox böyük qüvvələrlə və çox güclü silahlarla Qarabağ torpaqlarını tutduqları halda qaçmaq məcburiyyətində qaldılar. Bu bir seçimdir. Bu seçimə səbəbiyyət verən də Azərbaycan əsgərinin iradəsi idi, yəni Zəfərə inamı idi. Erməni əsgəri bu inanc qarşısında dayana bilmədi, yəni mənim bu Zəfərin qazanılmasında gördüyüm ən təməl parametrlərdən biri budur. Həqiqətən zəfər yalnız silah, atəş gücü ilə qazanılmır. Bu, savaşın bir qəhrəmanlıq dastanıdır. Bu Zəfərin birinci ilidir. Bu Zəfərin minlərcə il qeyd olunmasını Allah hamımıza nəsib etsin. Belə bir Zəfərə ehtiyacımız vardı. Çox böyük bir ruh yüksəkliyi verdi bizə. Bu, təkcə Ermənistanın deyil, yenilməz zənn edilənlərin yenildiyi, məğlub olduğu bir savaşdır",-deyə Abdullah Ağar əlavə edib.

Tədbirin sonunda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov videokonfransda çox faydalı müzakirələrin aparıldığını, gələcəkdə atılacaq addımlarla bağlı səmərəli fikirlərin səsləndirildiyini bildirib. Vətən müharibəsinin tariximizdə dönüş nöqtəsi olduğunu deyən Tahir Budaqov qeyd edib ki, Azərbaycan xalqı bundan sonra da Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında daha sıx birləşərək qarşıda duran vəzifələrin həyata keçirilməsində səfərbər olacaq.

YAP Sədrinin müavini vurğulayıb ki, Vətən müharibəsində qazanılmış Zəfər tarixi əhəmiyyət daşıyır: "Bu qələbələr türkə yaraşır. Arzu edirəm ki, bir millətin iki dövlətinin Zəfər yürüşü bundan sonra da davamlı olsun".

AK Parti Sədrinin birinci müavini, İstanbul Millət Vəkili Numan Kurtulmuş da yekunda çıxış edərək "Qarabağ savaşı: Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi" mövzusunda keçirilən videokonfransın əhəmiyyətini vurğulayıb və birgə tədbirlərin bundan sonra da keçiriləcəyini söyləyib.

# Nənə və babalar nəvələrinin tərbiyəsinə necə təsir edir?

**Yeni körpə dünyaya gətirən, doğuşdan sonra məzuniyyət ala bilməyən anaların tez bir zamanda işə qayıtması lazımdır. Hər iş yerində baxım evi olmadığı üçün ailələr ya baxıcı tutmalı, ya da övladlarını böyüklərinə etibar etməli olurlar. Lakin iqtisadi şərait ailələrə baxıcı tutmağa imkan verməyə bilər. Bəs, bir ağsaqqal kimi övladını sizə əmanət edən valideynlərlə münasibətinizi necə yaxşılaşdıra bilərsiniz, nəvə sevginizlə onların arasında ortaq nöqtəni necə tapa bilərsiniz? Bu araşdırmada körpəsini sizinlə qoyub gedən ana ilə empati qurmağınıza kömək edəcək məsləhətlər var.**

## İndiki şəraitdə hər şey dəyişib

Qadınlar indi daha fəal işləyirlər, amma təəssüf ki, onların xərcləri əvvəlkindən çoxdur. Bu məqamda hər doğum edən qadın ödənişsiz məzuniyyətə çıxa bilmir və qısa müddətdə iş həyatına qayıtmalı olurlar. Hər iş yerində də baxım evi olmadığı üçün baxıcıların xərcləri gəlirimizin böyük bir hissəsini təşkil edir və biz ağsaqqallardan dəstək istəməli oluruq. Güvən problemləri, xəcalət və ağlın hər zaman körpə üzərində saxlanması kimi bir-birinə qarışmış, mürəkkəb duyğular yığınına giririk. Türk mütəxəssis İlkgün Dəmir körpələrini sizə əmanət edən valideynlərlə daha yaxşı və sağlam münasibət üçün təkliflərini belə bölüşdü:

Ümumiyyətlə, böyüklərimizə diqqətimizi çəkən ilk şey odur ki, onlar öz övladlarını böyüdərkən icazə vermədikləri şeylərə nəvələrindən gələndə yol verirlər.

İlk növbədə ailənin böyükləri deməlidir ki, ”Mən onun nənəsi və ya babasıyam. Bu körpənin anası və atası var və mən onun böyüməsinə, baxımına dəstək verirəm. Bu körpənin bütün məsuliyyəti ana və atasına məxsusdur”. Siz ancaq bacardığınız qədər dəstək göstərə bilərsiniz. Bundan əlavə, valideynlər tərəfindən uşaq, onun geyimi, sağlamlığı ilə bağlı proses və nəzərə alınmalı olan şeylər haqqında verilən qərarlara hörmət etməlisiniz. Digər tərəfdən, körpənin qarşısında heç vaxt valideynləri tənqid etməməlisiniz.

İstənilən halda körpə işləməli olan anasından ayrı qalarkən travma yaşayır və bu tənqidlər uşaqda daha sonrakı yaşlarda ”tərk edilmə”, ”arzulanmama” hisslərinə səbəb ola bilər. Təbii ki, ana və ata olmaq üçün darıxmış ola bilərsiniz, övladınızı nəvənizdə görə bilərsiniz və hətta daha çox sevə bilərsiniz. Körpəyə qulluq ilə bağlı təcrübələr bu gün dəyişmiş olan və yaxud da gəlininizin və ya qızınızın analığı sizinkindən fərqli ola bilər. Bu nöqtədə körpəsini sizə əmanət etməli olan ana ilə empati qura bilmək, onu başa düşmək və ona kömək etdiyinizi xatırlayaraq səmimi dəstək göstərmək vacibdir. Siz ana və ata olaraq bu dəyərli dəstəyə görə könüllü olan ağsaqqallarımıza rəğbət bəsləməli, onları əziz tutmalı, problemlərini, əgər varsa, mərhəmətli tonla danışmalı, tələbləri izahlı şəkildə çatdırmalı və onlara etibar etməlisiniz.

İşləyən analar üçün eyni vaxtda işləmək və uşaqlarına baxmaq çətin ola bilər. Onlar övladlarını baxıcıya və ya etibarlı adama əmanət etməlidirlər. Valideynləriniz övladınıza rahatlıq verən ilk insanlardır. Beləliklə, nənə və baba ilə bir uşaq böyüdərkən sizi nə gözləyir? SİA məsələ ilə bağlı araşdırma apararaq, ekspert psixoloq və sosioloqların fikirlərini öyrənib.

Uşaqlarınızın yemək, içmək, yatmaq kimi gündəlik qayğılarından sonra ən çox ehtiyac duyduğu şey, şübhəsiz ki, ürəkdən sevilməkdir. Bu ehtiyac uşaq doğulduğu andan yaranır. Uşağınızın qayğısına qalması və qeydşərtsiz sevildiyini hiss etməsi onun inkişafı üçün çox vacibdir. Bu, uşağınızın dəyərli olduğunu hiss edir. Valideynlər qədər nənə və babanın da nəvə sahibi olmaq, nəvələrinə vaxt ayırıb baxmaq istəməsi, nəvələrinə baxmağa hazır olması uşaq üçün böyük əhəmiyyət kəsb edir.

Sosial mühit, tərbiyə, izdihamlı ailə uşaqlar üçün çox önəmlidir. Təkcə valideynlərinin deyil, həm də ailə ağsaqqallarının dəstəyini görmək onları imtiyazlı və dəyərli hiss etdirir. Uşaqlar həyatda onları məcbur edən situasiyalarla qarşılaşdıqda, kədərləndikdə, utandıqda və ya bir şeyə görə qeyri-adekvat hiss etdikdə, onları qoruyan və onların yanında olduqlarını bilmək istəyən ailə böyüklərinə ehtiyac duyurlar.

Bəzən uşaqlar valideynləri ilə anlaşa bilməyəndə ən çox güvəndikləri baba və nənələri ilə vaxt keçirmək istəyirlər. Çünki adətən nənə və baba nəvələrini qınamır və demək olar ki, hər xahişi yerinə yetirməyə çalışır. Bir çox uşaqlar üçün onlarla birlikdə olmaq evin hüzurla dolması deməkdir. Ancaq nənə və babalar nəvələrinin valideynlərinin onlar üçün qoyduğu qaydalara əməl etmirlərsə, öz qaydalarını tamamilə keçirməyə çalışırlarsa, o zaman uşaqlar daha çox çaşqın olur. Onlar valideynlərinin, nənə və babalarının onlara dediklərini edib-etməmələri arasında çaşqın olurlar.

Uşaqlar valideynlərini örnək götürdükləri üçün onları güvəndiyiniz insanlara etibar etmək istər-istəməz övladlarınızın onlara güvənməsinə səbəb olar. Bununla belə, onlar çox vaxt uşaqlar üçün ən etibarlı və ideal baxıcılardır. Onlar nəvələrinə sonsuz sevgi, şəfqət və qayğı ilə baxırlar. Onlar nəvələri ilə vaxt keçirməkdən və oyun oynamaqdan zövq alırlar. Fərqli və naməlum bir baxıcıya etibar etmək sizin üçün daha çətin olacaq.

Bizim təhlükəsiz sığınacaqlarımız övladlarımızı əmanət etdiyimiz öz valideynlərimizdir. Yayda işləyən bir çox valideynlər üçün uşaqlar nənə və babalarına əmanət olunur. Uşaqlar nənə və babalarının yanında qaldıqda, çoxlu xoş xatirələr yığsalar da, valideynlərin övladları üzərində qurduğu nizam pozulur. Bəs, biz valideynlər olaraq, onların nənə və babası ilə keçirdikləri vaxt ərzində uşaqlar və nənələr arasındakı münasibətləri necə idarə etməliyik?

Övladlarınızı öz valideynlərinizə əmanət etdiyiniz zaman onlardan orta hesabla sizin etdiyiniz kimi davranmalarını gözləyə bilərsiniz. Lakin nənə və babalar həmişə nəvələri ilə düzgün davranmağa can atsalar da, onların keçmiş vərdişləri həmişə daha çox üstünlük təşkil edir. Ona görə də qəbul edin ki, ata-ananızı xəbərdar etsəniz belə, onlar bəzən nəvələri ilə sərhədsiz rəftar edəcəklər və öz qayda-qanunlarına uyğun münasibətlər quracaqlar.

Dəyişikliyin özü çətin bir səyahətdir. Buna görə də valideynlərinizdən dəyişiklik gözləməməlisiniz.

Bəzən övladımız üçün qoyduğumuz qaydaları saxlamaqda çətinlik çəksək də, öz valideynlərimizdən ardıcıl davranmalarını və qaydaları pozmamalarını istəyə bilərik. Nəvələrə qulluq etmək nənə və babaların məmnuniyyətlə yerinə yetirdiyi bir məsuliyyət olsa da, siz də qəbul etməlisiniz ki, onların gündəlik həyatlarında vərdişlər və nümunələr heç vaxt dəyişməyəcək.

Valideynlərinizdən övladlarınız üçün aldığınız dəstəyi vaxta və ya tələblərə əsasən aydınlaşdırmağa çalışın. Adətən nənə və babası ilə keçirdikləri vaxtla qeyri-məhdud bir mühitdə olan övladlarınızın dəyişən vərdişlərini və mövcud münaqişələrini minimuma endirmək üçün valideynlərinizlə görüşərək uşaqlarınız üçün aldığınız dəstəyi aydınlaşdırmalısınız.

Sərhədlərinizi qoruyun və sağlam qalın. Bu, bütün münasibətlər üçün keçərlidir və övladlarınız vasitəsilə valideynlərinizlə quracağınız əlaqələrdə çox daha vacibdir. Adətən nənə və babalarına qalan uşaqlar, valideynlər işdən yorğun gələnə qədər birlikdə yemək yeyib, birlikdə vaxt keçirə bilirlər. Bu vəziyyət hər kəsi sevindirsə belə, bir müddət sonra uşaqların sərhədləri sınamasına və valideyn-övlad münasibətinə zərər verə bilər. Bu səbəblə valideynlərinizdən aldığınız dəstəyi lazım olduğu kimi saxlayın və işdən evə gəldiyiniz zaman uşağınızla münasibətinizə ailə vaxtı üçün vaxt ayırın.

## Valideynlərinin yanında valideyn ola bilməzsən!

Bu vəziyyət, əslində, bir çox insana məlum olan və sadəcə, adı çəkilməyən bir vəziyyətdir. Biz hələ də öz valideynlərimizin gözündə uşaq kimi mövcud olsaq da, nəvələr həyatımıza daxil olanda öz valideynlərimizlə valideynlik rolunu davam etdirə bilmərik. Burada vacib olan odur ki, biz bu şüurla sərhədləri, çərçivələri sağlam şəkildə qurmalıyıq.

**Məsələnin psixoloji yanı ilə bağlı psixoloq Zeynəb Eyyubova öz fikirlərini bu cür ifadə edib:** ”Ümumiyyətlə, indi Azərbaycanda uşağı bağçaya bir yaşından etibarən yazdırmaq olar. Uşağın bir yaşı olan kimi artıq valideynlər onu bağçaya qoya bilər. Bağçaya qoymaqla onların sosiallaşması, disiplin anlayışı, normal vaxtda yemək yeməsi, qidalanması, televizordan uzaq olması, planşet telefondan uzaqlaşması mümkündür.

Adətən, nənə baba yanında qalan uşaqlar 90 faiz etibarilə ərköyün

olurlar. Yəni, uşaqlar nəvə olduqlarına görə nənəylə baba onlara yox deyə bilmir, onlarla əlaqə qurarkən nənəlik və babalıq qayğısına görə onların istəmədən davranışlarını pozurlar. Atanın, ananın yox dediyinə bəzən nənə baba hə deyir və s.

Çalışan valideynlər uşaqlarını bağçaya qoya bilər. Nənə ilə baba adətən uşaqların davranış pozuntusuna səbəb olur. Əlbəttə, bunun əksi olaraq intizamlı nənə-babalar da var ki, uşaqlara baxır və gözəl nəticələr əldə olunur”.

**Sosioloq Əhməd Qəşəmoğlu isə məsələnin sosial yanlarını izah edib:** ”Uşağın nənə və baba ilə qalmasının müsbət tərəfləri çoxdur. Lakin bu müsbətlərlə yanaşı bir sıra mənfilər də olur. Məsələn, onun günün bir hissəsini və ya həftənin bir neçə gününü nənə-babası

ilə keçirməsi çox faydalıdır. Çünki nənə-baba psixologiyalarına görə ata-anadan bir qədər fərqlidir. Onlar uşağa qarşı daha qayğıkeş, daha mülayim olurlar və öz nənə-babalarından danışırlar. Onlar uşağa nəsli, kökü barədə ətraflı məlumat verirlər.

Həmçinin, nənə-babanın çox vaxtı olur və onlar uşaqla daha çox vaxt keçirirlər. Bu baxımdan, onların vaxt keçirməsi çox faydalıdır. Lakin uşağın bütün günü onlarla qalması da ziyandır. Çünki onun öz uşaq mühitinə çox ehtiyacı var. Uşaq öz dostları ilə də zaman keçirməlidir. Uşaq öz yaşıdlarından başqa enerji alır. Ata-anadan alınan isə tamam fərqli enerjidir. Yəni, ata-ananın yeri ayrıdır.

Ata-ananın da uşağa qarşı müəyyən bir münasibəti formalaşdırılmalıdır. Ata-anadan təcrid olunmaq yaxşı hal deyil. Vaxtının çoxunu nənə-baba ilə keçirən uşaqlarda eqoistlik olur. Çünki o həmyaşıdları ilə vaxt keçirmir. O, xaraktercə baba ilə nənənin hərəkətlərini yamsılayır və yaşıdlarına yadlaşır”.

***Ayşən Vəli***

ARXİVDİR

# "Qarabağın hava qapısının iki dost ölkənin liderlərinin iştirakı ilə açılışı dünyaya ünvanlanan növbəti qardaşlıq nümunəsidir"

**Qarabağın hava qapısının iki dost ölkənin liderlərinin iştirakı ilə açılışı dünyaya ünvanlanan növbəti qardaşlıq nümunəsidir. AZƏRTAC xəbər verir ki, bunu Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.**

O, bu gün dünyanın diqqət mərkəzində olan Türkiyə-Azərbaycan dostluğundan, qardaşlığından bəhs edərək bildirib ki, iki dost, qardaş ölkəni biri-birinə tarixi köklər bağlayır. Türkiyə ilə Azərbaycan hər zaman bir-birinin yanında olduqlarını istər sevincli, istərsə də kədərli anlarında təsdiqləyirlər Böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" tezisləri bütün dövrlər üçün öz aktuallığını qorumaqla yanaşı, perspektivlərin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır. Bu gün həmin siyasət Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən uğurla davam etdirilir. Dünyaya nümunə olan bu birlik və həmrəylik 44 günlük İkinci Qarabağ savaşında özünü bir daha göstərdi. Dünyaya "Azərbaycan tək deyil!" mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan siyasi və mənəvi dəstəyi ilə Azərbaycanın, dövlətimizin başçısı İlham Əliyevin yanında oldu.

V.Rəhimzadə qeyd edib ki, Zəfər yürüşümüzün başlandığı andan bu günədək hadisələrin xronologiyasına diqqət yetirdikdə Türkiyənin Qələbəmizi bizimlə birgə yaşadığı, hər bir tarixi hadisənin reallaşdığı zaman Prezident İlham Əliyevin yanında olduğu özünü qabarıq şəkildə büruzə verir. Azərbaycanın Qələbəsinin dünyaya təqdimatında əhəmiyyətli rol oynayan Zəfər paradının keçirilməsindən bu günə, yəni, Qarabağın dünyaya açılan hava qapısı kimi dəyərləndirilən Füzuli Beynəlxalq Hava Limanının açılışına qədər iki dahi lider bütün dünyaya dostluq, qardaşlıq nümunəsini nümayiş etdirirlər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan işğaldan azad edilmiş ərazilərimizə, Qarabağın tacı, musiqi beşiyimiz Şuşaya ilk səfər edən dövlət başçısıdır. Oktyabrın 26-da bu ənənə davam etdirilərək ilk olaraq Füzuli Beynəlxalq Hava Limanına qardaş ölkənin təyyarəsinin enişi, ən əsası Türkiyə Prezidentinin aeroportun açılış mərasiminə qatılması qürurvericidir. 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında Türkiyə Prezidentinin çıxışında səsləndirdiyi bu fikirləri yada salmaq istərdim: "Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq Ana Vətəninə qovuşmuş, otuz illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir".

"Oktyabrın 26-da Türkiyə Prezidentinin iştirakı ilə keçirilən möhtəşəm tədbir dostluğumuzun, qardaşlığımızın dünyaya növbəti mesajı oldu", - deyən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, bu mühüm hadisə, həmçinin Rəcəb Tayyib Ərdoğanın Zəfər paradında söylədiyi fikirlərin reallıqda təsdiqidir: "İşğaldan azad edilmiş ərazilərimizdə ilk mühüm, iqtisadi və strateji əhəmiyyəti ilə dünyanın diqqətində olan Füzuli Beynəlxalq Hava Limanının azərbaycanlı və türk mühəndislərinin birgə səyləri nəticəsində tikilib istifadəyə verilməsi bu tipli layihələrin davamlılığından xəbər verir. Şuşanın şahidlik etdiyi, iki dövlətin müttəfiqliyinin təsdiqi olan Şuşa Bəyannaməsində perspektivlər öz əksini tapıb. Qardaş ölkənin Prezidentinin Qarabağımıza növbəti səfəri Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməlinin qoyulması ilə də tarixə yazıldı. Yazılan hər bir tarix qardaşlığımızın, dostluğumuzun təqdimatı, dünyaya ünvanlanan birlik, həmrəylik nümunəsidir. Rəcəb Tayyib Ərdoğanın ötən il Zəfər paradında iştirakla bağlı səfəri çərçivəsində imzalanan sənədlərlə bağlı qeyd etdiyi kimi, atılacaq daha çox imzalar var".

# Bu il 34 mindən çox erməni Rusiya vətəndaşlığını qəbul edib

**Ötən əsrin 90-cı illərində Ermənistandan mühacirətin səbəbləri əsasən iqtisadi xarakter daşıyırdı. Əhalinin kütləvi axınının ilk dalğası da həmin illərə, aclığın tüğyan etdiyi və insanların adi məişət problemlərini həll edə bilmədiyi 90-cı illərə düşdü. Sonrakı "normal" illərdə bu proses nəzərəçarpacaq dərəcədə yavaşladı.**

Amma Ermənistandan köçmə tendensiyası həmişə yüksək olub. Aparılan sorğunun nəticələrinə görə, mühacirlərin 72%-dən çoxu ölkədən getmələrinin aşağıdakı səbəblərini göstəriblər: işin və ya vətənlərində layiqli yaşamaq üçün zəruri olan gəlirin olmaması. Bu, əsas amildir. Mühacirətin ikinci dərəcəli səbəbləri də var, ailələrin uzlaşa bilməməsi.

Təbii ki, hər sorğuda insan subyektivliyi var. Məsələn, mühacirətin yuxarıdakı səbəblərindən biri ailələrin birləşməsidir. Ancaq ailələr "nədənsə" Ermənistanda deyil, başqa ölkələrdə birləşirlər. Məsələn, ABŞ-da erməni mühacirlərin həyat keyfiyyəti Ermənistandakılardan müqayisə olunmaz dərəcədə yaxşıdır. Yəni, bu zaman sosial-iqtisadi xarakterli faktorlar işə düşür.

Mühacirət üçün yuxarıda qeyd olunan səbəblərə ötən ildən yeni, daha çətin bir səbəb əlavə olunub - Qarabağda 44 günlük müharibənin nəticələri. Sərhədlərdə aramsız qarşıdurmalar, təxribatlar, yaxın gələcəkdəki qeyri-müəyyənlik bir çox insanı təhlükəsiz yaşamaq üçün, o cümlədən ölkədən kənarda yer axtarmağa vadar edir.

Təsadüfi deyil ki, cari ilin ötən aylarında Rusiya vətəndaşlığını qəbul etmiş Ermənistan vətəndaşlarının sayında kəskin artım qeydə alınıb. 2017-2021-ci illərin yanvar-sentyabr ayları üçün bu göstəricinin dinamikasını əks etdirən aşağıdakı qrafikdən bunu aydın görmək olar.

Baş verənlərin tam mənzərəsi üçün biz 2017-2020-ci illər üçün illik göstəriciləri ümumiləşdirir və onlara cari ilin yanvar-sentyabr ayları üçün məlumatları əlavə edirik. Nəticə, əhali baxımından kiçik Ermənistan üçün sözün əsl mənasında fəlakətlidir - 141 min nəfər Rusiya vətəndaşlığını qəbul edib.

Qeyd edək ki, 2021-ci ilin doqquz ayı ərzində Rusiya vətəndaşlığını qəbul edənlərin sayı (34,1 min nəfərdən çox) yaxın retrospektivlərin illik göstəricilərini üstələyib. Belə ki, maksimum səviyyə ötən il müşahidə olunub - 30,5 min nəfər. Yəni, cari il üçün artıq bu sahədə "anti-rekord" vaxtından əvvəl müəyyən edilib. Hesabat yanvar-sentyabr aylarında Ermənistan keçmiş SSRİ-nin dağılmış respublikaları arasında mütləq göstəricilərə görə 4-cü yeri tutmuşdur. Ukrayna (293 min nəfər), Tacikistan (demək olar ki, 70 min nəfər) və Qazaxıstan (36 min nəfərdən az) bu reytinqdə Ermənistandan irəlidədir. Bununla belə, "Rusiya vətəndaşlarının" Ermənistan əhalisinin ümumi sayındakı payına görə (yanvar-sentyabrda 1,2%) ermənilər reytinqdə heç də nüfuzlu olmayan 1-ci yeri tutur.

Ukrayna və Qazaxıstanda rus diasporu əhalinin əhəmiyyətli hissəsini təşkil edir ki, bu da göstəricinin yüksək mütləq səviyyəsini izah edə bilər. Əksinə, Ermənistan monoetnik ölkədir - ermənilər həmişə əhalinin böyük əksəriyyətini (bu ilin əvvəlində - 98%-dən çox) təşkil ediblər.

Ermənistanda bir çox keçmiş sovet respublikaları üçün xarakterik olan etnik rusların öz tarixi vətənlərinə qayıtması prosesi ötən əsrin 90-cı illərdə baş verdi. 1989-cu ildə Ermənistandakı rusların sayı demək olar ki, 52 min nəfərə, 2010-cu ildə isə artıq 12 mindən az həddə düşdü. Aydındır ki, son on ildə və bu il öz tarixi vətənlərinə qayıdan (yoxsa qovulan - müəllif) etnik rusların sayı bu il ərzində də olub. Belə ki, Rusiya vətəndaşlığını qəbul edənlərin böyük əksəriyyəti Ermənistanın yerli əhalisi olub.

Nəticə gözləniləndir, əgər yaxın gələcəkdə ölkədə mövcud çətin vəziyyətdə kardinal müsbət dəyişikliklər olmasa, bu, mühacirət miqyasının daha da genişlənməsinə səbəb ola bilər.

# "Bu kimi tədbirlər Azərbaycanın imicinin artmasının göstəricisidir"

"Bakıda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qlobal Bakı Forumu keçiriləcək. Bildiyimiz kimi, bu beynəlxalq təşkilat çox aktivdir. Həmçinin, dünyada və Avropada çox tanınan təşkilatlardandır. Bu mərkəzin idarə heyəti, təsisçiləri, rəhbəri dünyanın tanınmış dövlət adamları və siyasətçiləri səviyyəsində tanınmış adamlardır. Onların Azərbaycanda müxtəlif mövzularda və xaricdə keçirilən tədbirlərində Azərbaycan həqiqətləri dünyaya daha çox çatdırılır, beynəlxalq ictimaiyyət Azərbaycanla bağlı daha çox məlumat alır və dünya Azərbaycana qarşı olan ikili standartlar vasitəsilə daha çox məlumat toplayır". Bu sözləri SİA-ya açıqlamasında deputat Məlahət İbrahimqızı deyib. Onun sözlərinə görə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin keçirdiyi tədbirlərdə Azərbaycanın istər bölgə, istər Avrasiya, istərsə də Avropa üçün nə qədər töhfələr verdiyinin şahidi oluruq: "Azərbaycan tarixən bəşəriyyətə, bəşər sivilizasiyasına istər mədəniyyət, istərsə də incəsənət və müsiqi sahəsində böyük töhfələr verib. Həmçinin, buraya elm sahəsini də şamil etmək olar. Bu mənada bugünkü 20-ci əsrin sonu və 21-ci əsrin əvvəlində Azərbaycanın çox böyük qatqısı var".

Deputat sözlərinə belə davam edib: "Hər dəfə bu təşkilatın xətti ilə tədbirlər keçirildikcə, Azərbaycanın nüfuzu, imici daha da artır və Azərbaycan dövlətinin, xalqının nə qədər mütərəqqi, vətənpərvər, insanlığa töhfə verən, multikultural dəyərlərin qorunmasında böyük rolu olduğu aydın olur. Xüsusilə də "Zəfər Günü" ərəfəsində bu cür tədbirlərin keçirilməsi Azərbaycanın dünyada imicinə böyük qatqı olacaq".

"Cənab Prezident İlham Əliyev 30 ilə yaxındır işğal altında olan torpaqların azad olunmasında məsələnin dinc və sülh yolla həll olunmasını üstün tuturdu. Çünki, müharibə dağıntı, ölüm, itki və fəlakətdir. Bu o deməkdir ki, cənab Prezidentimiz bölgənin taleyində əmin-amanlığın qorunmasına böyük önəm verirdi. Baxmayaraq ki, Azərbaycan çox güclüdür və həmçinin də ordumuz dünyanın 50 güclü ordusundan biridir, lakin Prezident yenə də bu məsələyə həssaslıqla yaxınlaşırdı".

***Ayşən Vəli***

# Mateuş Piskorski: "İrəvan Qərbə arxalandı və bu da onun tamamilə məhvinə gətirib-çıxardı"

"Bilirsiniz, belə bir ifadə var: "Hər zaman yaxşı ola bilər". Bu gün Polşa ilə Azərbaycan arasındakı münasibətlər dostluq xarakteri üzərindədir. Mənim nəzərimcə, ilk növbədə, bizim ölkələrimiz arasındakı ticarət dövriyyəsinin necə artırılması barədə düşünmək lazımdır. Axı ölkələrimizin mövcud olduğu imkanları nəzərə alsaq, bu, elə də böyük deyil. İqtisadi əlaqələri stimullaşdırmaq, energetika və s. sektorlarda əməkdaşlığı gücləndirmək lazımdır. Bir çox ekspertlər enerji resurslarının diversifikasiyasının vacibliyi barədə danışırlar. Başqa sektorları da inkişaf etdirmək lazımdır, məsələn, innovasiya texnologiyaları sahəsində mübadilələr etməyi. Beləliklə, hər zaman nəyinsə üzərində işləmək imkanları var. Mənim nəzərimcə, bizim dövlətlər qarşılıqlı əməkdaşlığa ehtiyac duyurlar". SİA xəbər verir ki, bu barədə caliber-ə siyasi elmlər namizədi, Avropanın geosiyasi mərkəzinin analitiki, polşalı politoloq Mateuş Piskorski deyib.

Azərbaycanın 44 günlük müharibədəki qələbəsi barədə də danışan polşalı politoloq bildirib ki, əgər Azərbaycanla Ermənistanın hərbi büdcə xərclərini müqasiyə etsək, bu zaman Bakının 44 günlük müharibədəki qələbəsinin gözlənilən olduğunu inamla söyləmək olar. Onun sözlərinə görə, bu barədə uzun illərdir ki, danışılırdı.

"Məhz Paşinyanın düşüncəsiz fəaliyyəti müharibənin baş qaldırmasına şərait yaratdı. Sadəcə, Azərbaycanın hərbi potensialını və Silahlı Qüvvələrin hazırlıq səviyyəsinin analizini aparmaq kifayət edərdi ki, Ermənistanın İkinci Qarabağ müharibəsində heç bir şansının olmadığını anlayasan", deyən Mateuş Piskorski münaqişəsinin daha əvvəlcədən sülh yolu ilə həll edilməsi mümkünlüyünün olub-olmaması barədə də irəli sürdüyü fikirlərində bildirib ki, o, istənilən münaqişənin sülh yolu ilə həll olunmasına inanır: "Düşünürəm ki, Ermənistanın əvvəlki rəhbərliyi Serj Sarqsyan başda olmaqla, hətta ona verilən bəzi qiymətlərə rəğmən, Rusiya və Türkiyənin ortaqlığı ilə dialoqa hazır idi. Mövcud məqamda Paşinyanın siyasi iradəsi çatmadı. İrəvanın hazırkı rəhbərliyi bilavasitə Qərbə tərəf orientasiya olunmuşdu. Onlar Rusiyadan üz döndərdilər və ümid etdilər ki, Azərbaycanla baş verən hərbi münaqişədə Qərb onlara kömək edəcək. İrəvan qətiyyətlə istənilən kompromislərdən imtina etdi, hansı baş verənlər baş verməyə də bilərdi. Bu, onun nəticəsidir ki, Ermənistan Qərbə arxalanırdı və bu da onun tamamilə məhvinə gətirib-çıxardı", Avropanın geosiyasi mərkəzinin analitiki bildirib.

***Rövşən***

# Qubadlının azad edilməsi vacib mərhələ oldu

## TƏHLİL

Ötən ilin bu günlərində Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu düşmən üzərində öz qələbələri ilə xalqımıza qürurlu, sevincli anlar yaşatmaqda davam edirdi və hər birimizin, hər bir azərbaycanlının keçirdiyi sonsuz fərəh hissini yaxşı xatırlayırıq. Əlbəttə ki, belə sonsuz qürur hissi keçirməyə, fərəhlənməyə hər birimizin haqqı var idi və bu haqqı biz, Azərbaycan Ordusunun rəşadəti, bu ordunun Ali Baş Komandanı, cənab Prezident İlham Əliyevin qətiyyəti, uzaqgörənliyi, təcrübəsi və ümumilikdə desək, liderlik keyfiyyətləri ilə qazanmışdıq. Bəli, bundan sonra bizim qalib Prezidentimiz, qalib ordumuz, qalib xalqımız var deməyə hər birimizin, hər bir azərbaycanlının haqqı çatır və qələbə salnaməsi nəinki Azərbaycan tarixinə, eləcə də dünya tarixinə öz möhtəşəmliyi ilə qızıl hərflərlə yazıldı.

Bir-birinin ardınca əldə olunan qələbələrdən, xüsusən də Zəngilan şəhəri işğaldan azad olunduqdan sonra təbii ki, növbəti istiqamət Qubadlı idi və bunu yaxşı başa düşən, həm də qorxuya düşən işğalçı Ermənistan silahlı qruplaşmaları həmin ərazilərdə güclü istehkamlar qurmuşdular. Bəli, Qubadlını azad etmək üçün, ilk növbədə, yüksəkliklərin götürülməsi lazım gəlirdi, çünki, həmin yüksəkliklər düşmənin nəzarətində idi və düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Məhz buna görə də Qubadlı əməliyyatının xüsusi peşəkarlıq və fədakarlıq tələb etdiyini hər kəs bilirdi və qürurverici məqamlardan biri də budur ki, Azərbaycan Ordusu belə bir peşəkarlıq, belə bir fədakarlıq nümayiş etdirdi, ən vacib yüksəklikləri, strateji yüksəklikləri götürdü və ardınca da şəhəri düşməndən, erməni işğalından azad etdi.

Biz artıq Qubadlının işğal tarixini deyil, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Azərbaycan Ordusunun şücaəti, xalqımızın dəstəyi sayəsində onun azadlıq tarixini, işğaldan azad olunduğu tarixi qeyd edirik, çünki bu səhifələr qızıl hərflərlə tarixə yazılıb. Qubadlı şəhərinin, eləcə də rayonun bir sıra kəndlərinin, yaşayış məntəqələrinin düşməndən təmizlənməsi Azərbaycan Ordusunun Ermənistanla sərhəddə doğru sürətlə irəlilədiyini təsdiqləyirdi. Bu isə qarşı tərəfi durmadan sarsıdır, əsgərlərimizin isə qələbə əzmini daha da artırırdı. Məhz bu baxımdan da qələbələrimizin əldə edilməsində Qubadlının azad edilməsi xüsusi əhəmiyyət kəsb edirdi.

Erməni silahlı qüvvələrinin darmadağın edilməsini məhz Qubadlının işğadan azad edilməsi bir az da sürətləndirdi deməkdə hər kəs haqlıdır. Bu zaman Ermənistan tərəfi də bunun fərqində idi. Elə ona görə də Ermənistan tərəfi həmişə olduğu kimi Rusiyadan yardım istəmək, daha doğrusu silah almaq üçün yalvarmaq məcburiyyətində qaldı. Buna baxmayaraq, İran üzərindən Rusiyanın Ermənistana silah göndərməsi də erməni işğalçılarını xilas edə bilmədi. Artıq bu silahların da əvvəlkilər kimi Ermənistan üçün heç bir əhəmiyyəti, məğlubiyyətdən boyun qaçırmaq üçün rolu olmadı. Bəli, erməni cəmiyyətindən məğlubiyyətlərini gizlədənlər artıq fərqində idilər ki, Azərbaycanın, Azərbaycan Ordusunun qarşısını almaq mümkün olmayacaq və belə bir qənaətə gəlinməsində məhz Qubadlının işğaldan azad olunmasının, bu zaman aparılan əməliyyatların, mübarizənin, savaşın əhəmiyyəti danılmazdır.

Onu da xüsusilə diqqətə çatdıraq ki, Qubadlını azad etməklə, Azərbaycan tərəfi Qarabağla Ermənistanı bağlayan yeganə əlaqə yolunu, Laçın dəhlizini asanlıqla geri qaytarmaq, ələ keçirmək imkanı qazandı. Doğrudur, Qarabağı tərk etmək məcburiyyətində olan mülki əhalini nəzərə alaraq, həmin dəhliz tutulmadı, amma bu vəziyyət də ermənilər sarsıdırdı. Yəni istənilən anda dəhlizin bağlanması ilə bütün əlaqələrinin kəsiləcəyindən ermənilərin qorxuya düşdükləri anlaşılan idi və bütün bunlar məhz Qubadlının işğaldan azad edilməsi ilə reallaşırdı.

Qubadlının işğaldan azad edilməsində diqqət çəkən digər bir məqam ondan ibarətdir ki, Azərbaycan Ordusunun bu rayonu işğaldan azad etməsi ilə müharibədə ilk dəfə Azərbaycanla Ermənistanın dövlət sərhəddi bərpa edildi. Çünki, Qubadlı rayonu Ermənistanla bizim aramızda sərhəddə yerləşirdi. Yəni Qubadlının işğaldan azad edilməsi coğrafi nöqteyi-nəzərdən bu imkanı təmin etdi.

Nəzərdən qaçırmaq olmaz ki, Qubadlı rayonunun işğaldan azad edilməsi Laçın istiqamətində mühüm əməliyyatların keçirilməsi üçün platsdarm qazandırdı. Bunun ardınca isə Azərbaycan Ordusunun Hadrut-Şuşa istiqamətində irəliləmək imkanları genişləndi. Bəli, Qubadlının işğaldan azad edilməsi ilə Azərbaycan Ordusunun nəzarətinə keçəm Laçın dəhlizi tutulmasa da belə, düşmənin manevrlərini məhdudlaşdırdı. Çünki, başda silah-sursat və ərzaq olmaqla Ermənistan tərəfinin bütün ehtiyatları yalnız məhz Laçın dəhlizindən daşına bilərdi və bu dəhlizin ordumuzun nəzarətində olması belə bir məhdudiyyət yaratdı.

Təbii ki, döyüşlərin son nöqtəsini qoyan Şuşa əməliyyatları hesab olunur. Məhz Şuşanın azad edilməsi ilə düşmən diz çökdü və düşmənin təslim olmaqdan başqa çarəsi qalmadı. Bununla belə nəzərə almaq lazımdır ki, Şuşa istiqamətində əməliyyatlara başlanılması üçün də bu rayonun, Qubadlının azad edilməsi xüsusi əhəmiyyət kəsb etmiş oldu. Deməli, Qubadlının işğaldan azad edilməsi torpaqlarımızın, Azərbaycan torpaqlarının, Qarabağın işğaldan azad edilməsi istiqamətində Azərbaycan Ordusunun apardığı haqlı, ədalətli mübarizənin məntiqi sonluğunu daha da yaxınlaşdırdı və bunun üçün daha böyük zəmin yaratdı. Bir sözlə, Qubadlının azad edilməsi çox mühüm, vacib mərhələ oldu.

Bəli, Azərbaycan Ordusu müzəffər Ali Baş Komandanın rəhbərliyi, qətiyyəti, iradəsi, liderlik keyfiyyətləri, xalqın birliyi, həmrəyliyi ilə böyük şücaət göstərdi, torpaqlarımızı işğaldan azad etdi. Tarixi ədalətin bərpası təmin edildi. Bunu Azərbaycan öz Prezidentinin rəhbərliyi ilə, öz hesabına, öz gücü, öz qüdrəti ilə edə bildi. Doğrudur, bu tarixi ədalətin bərpa edilməsi bundan sonra hər zaman xalqın qəlbində əbədi olaraq yaşayacaq, hörmət və ehtiramla yad ediləcək əsgər və zabitlərimizin canı, qanı bahasına başa gəldi, amma himnimizin sözlərində deyildiyi kimi, bu yolda can verməyə, qan tökməyə hazır olduğumuzu bütün dünya gördü. Bütün dünya bizim qəhrəman, qalib, müzəffər, öz haqlarını kimsəyə güzəştə getməyən, torpaqlarının bir qarışını belə güzəşt etməyən, sərhədlərini, ərazi bütövlüyünü, suverenliyini, təhlükəsizliyini qorumaq iqtidarında olan bir xalq olduğumuzu yaxşı bildi. Bildi ki, ərazi bütövlüyünü qorumaq iqtidarında olan müzəffər Ali Baş Komandan, cəsur, fədakar Azərbaycan Ordusu, birlik, həmrəylik nümayiş etdirən, hər zaman öz liderinin yanında olan Azərbaycan xalqı bu ölkənin, bu dövlətin haqlarının tapdalanmasına, torpaqlarının işğal edilməsinə, suverenliyinin təhdid edilməsinə imkan verməz.

***İnam Hacıyev***

---

# Erməni snobizmi: otuz il boş yerə keçdi

**Rusiyada nəşr edilən "Vzqlyad" qəzetində jurnalist Yevgeni Krutikovun maraqlı məqaləsi dərc edilib. Məqalədə Ermənistanın düşdüyü ağır və çıxılmaz vəziyyətinin əsas səbəbləri və s. məsələlər barədə diqqətçəkici fikirlər yer alıb. SİA həmin məqalənin tərcüməsini olduğu kimi təqdim edir.**

Ermənistan öz mövcudluğunun mənasını itirib. Ermənilər 1990-cı ilin avqustunda müstəqillik bəyannaməsi qəbul ediblər - baltikyanıları hesaba almasaq, SSRİ-də birinci onlar olublar. Və onlar İttifaqın dağılmasında avanqard olublar, əgər aşağıdakı təşəbbüslər barədə danışarsaq: latışlar, litvalılar və estonlar nəyi isə gözləyərkən, ermənilər açıq şəkildə müstəqillik tələb edirdilər. Mərkəzdən çəkinən baltikyanılar İrəvanda baş verənləri ağıllarına belə gətirmirdilər. Bütün baş verənlərin əsas stimulu Qarabağ idi. Ermənilər Qarabağdan başqa heç nə narahat etmirdi. İttifaq rəhbərliyi bu münaqişədə birmənalı qaydada İrəvanın tərəfində dayana bilməzdi və İrəvan çıxışa doğru can atdı. 1991-ci ildə Ermənistanı təqribən milyon insan tərk edib, həmin 1991-ci ildə əhalinin ümumi sayı üç milyon yarım idi. Gedənləri anlamaq olar. Xatırlayanlar bilir - İrəvanda hər evin pəncərəsindən soba boruları tüstüləyirdi, hər avtoyanacaq yerində isə növbələr düzülürdü və klassik sual verilirdi: "Benzin çka (yoxdur)?". "Çka" cavabı isə sərf etmirdi.

Sonra ikinci klassik sual gəlirdi: "Vaapşe çka?". Hə, yoxdur. Hamısı Qarabağdakı tanklara gedib. Ermənistanın müstəqilliyi heç vaxt iqtisadi məsələ olmayıb. Bu, yaşamaq cəhdi məsələsi idi. İndi bütün nəslin üzərindən keçən otuz ildən sonra hər şeyə yenidən başlamaq lazım gəlir. 1990-cı ildə müstəqilliyin qazanılması üçün sayılan əsas uğur toza çevrildi. Birinci müharibədən sonra erməni cəmiyyətini əhatə edən snobizm uzun müddət erməni siyasətçilərinin qəribə təsəvvürlərini üzdə saxlayırdı ki, Minsk prosesi çərçivəsində, ya da başqa hər hansı danışıqlarda təsadüfi hərbi qələbənin nəticələrini qeydə almaq olar, yox əgər alınmazsa - yenisini qazanmaq lazımdır. Şuşanı özümüz aldıq, Ağdamı özümüz aldıq, Bakını da özümüz alacağıq. Əgər ruslar yardım etmək istəsələr - qoy etsinlər, ancaq ümumiyyətlə biz onlarsız da həll edərik - diaspora yardım edəcək. Belə bir məntiq var idi. Sonradan isə müstəqilliyi bəyan edənlərin uşaqları Hadrutda türk PUA-larının zərbələri altında həlak olurdular, hətta təhlükənin haradan gəldiyini anlaya bilmədən.

Anidən aydın oldu ki, 1990-cı illərin faciələri və nələrdənsə imtinası - hər şey boş şey imiş. Müstəqillik uğrunda mübarizələrdə əldə edilənlər rüsvayçılıqla atıldı. Günahkarlar isə bir çoxlarının təsəvvürlərində ruslar oldu. Hansı ki,

otuz il onlara (ruslara-R.R.) deyirdilər ki, "özümüz həll edəcəyik". Spyurka (diaspora) olan ümidlər işləmədi. Cənubi Qafqazdakı güclərin bir neçə nöqtələr arasındakı balanslaşdırması cəhdi də özünü doğrultmadı: dərhal aydın oldu ki, ABŞ-n bu regiona xüsusi marağı yoxdur, Fransa başqa işlərlə məşğuldur, Türkiyədə isə əksinə, kifayət qədər entuziazm var. Həmin məqamda ermənilərin bütöv bir nəsli təhlükəsizlik hissi ilə böyümüşdü. İqtisadi ya da sosial təminat nöqteyi-nəzərindən deyil - bunun üçün onlar Rusiyaya gedirdilər, yəni Qarabağdakı "müdafiə dəhlizləri" hesabına. Ötən ilin 44 günü bu illüziyaları darmadağın etdi, Ermənistan üçün əsas olan təhlükəsizliyin özü isə əridi. Təhlükəsizlik hissi olmadıqda isə, istənilən düşmən əhatəsindəki müstəqillik bir qara qəpiyə də dəyməz. Bəli, otuz il boş yerə keçdi. Artıq elə bir zaman yetişib ki, onun mənası daha böyükdür - səhvlərini qəbul etmək və nəhayət - snobizmdən qurtulmaq. Ermənistanın dövlət olaraq "Qarabağ hər şeydir" mövqeyi onun dünyadakı reallıq təsəvvürləri təminatında yer almadı. Ancaq bu, o demək deyil ki, Ermənistanın gələcəyi yoxdur - sadəcə, onu yenidən düşünüb-qurmaq lazımdır.

***Tərcümə etdi:***
***Rövşən RƏSULOV***

ARXİV

# Vətən üçün öz canından keçən qəhrəmanlar heç vaxt unudulmur!

## YAP Sabunçu rayon təşkilatı hesabat-seçki yığıncaqlarını davam etdirir

Dünən YAP Sabunçu rayon təşkilatı Məmmədliyev küçəsi 16 ərazi ilk partiya təşkilatının hesabat-seçki yığıncağı keçirilib. Ərazi ilk partiya təşkilatının sədri Məmmədov İsmət hesabat məruzəsi ilə çıxış edərək təşkilatın VI qurultayından sonrakı dövr ərzində görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışdı. Bildirdi ki, təşkilatdakı YAP üzvləri istər ölkə səviyyəsində keçirilən tədbirlərdə, istərsə də rayon tədbirlərində fəal iştirak edirlər. Hesabat məruzəsi ətrafında geniş müzakirələr aparılıb və ərazi ilk partiya təşkilatının hesabatı qeyri-qənaətbəxş hesab olunub. Daha sonra partiya təşkilatının rəhbər orqanlarının yeni tərkibi seçilib. Yığıncaqda çıxış edən YAP Sabunçu rayon təşkilatının sədri Misirxan Vəliyev çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Şübhəsiz, sosial-siyasi sabitliyin qorunması, mövcud iqtisadi inkişaf, hərtərəfli tərəqqi heç də asan məsələ deyildi. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin elan etdiyi "Qarabağ Azərbaycandır və nida" şüarı xalqımızı qələbəyə səsləyən rəhbər çağırışı oldu. 44 gün davam edən Vətən müharibəsində cəmiyyətimizin nümayiş etdirdiyi möhtəşəm səfərbərlik xalqımızın dövlət başçısının ətrafında sıx birləşdirdi.

M.Vəliyev yeni seçilmiş sədr və müavini təbrik edərək, iclas iştirakçılarını partiyanın fəaliyyətində daha da yaxından iştirak etməyə çağırıb, həmçinin VII qurultayda YAP rəhbərliyi tərəfindən qarşıya qoyulan vəzifələr, öhdəliklər, yeni sturuktur və yeni fəaliyyət haqda partiya fəallarına məlumat verib.

***Rəfiqə***

## Şəhid Mirəli Hüseynovun ailəsi ziyarət olunub

YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov, Ağcabədi rayon icra hakimiyyəti başçısı aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Şöhrət Orucov, YAP Ağcabədi rayon təşkilatının əməkdaşları və bir qrup YAP fəalının iştirakı ilə şəhid Mirəli Hüseynovun ad günü münasibətilə şəhidin ailə üzvləri ziyarət edilib. Tədbir iştirakçıları əvvəlcə şəhid Mirəli Hüseynovun yaşadığı evin yaxınlığında onun adına inşa olunmuş xatirə bulaq kompleksini şəhidin valideynlərinin iştirakı ilə ziyarət edib, şəhidin mərmər üzərində həkk edilmiş şəkli önünə qərənfillər düzərək, onun əziz xatirəsini ehtiramla anıblar. Ziyarət iştirakçıları sonra şəhidin doğulub, boya-başa çatdığı evə gedərək, ailə üzvləri və yaxın qohumları ilə görüşüblər.

Görüşdə YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov şəhidin ailə üzvləri ilə söhbət zamanı Mirəli Hüseynovu şəxsən tanıdığını, onun vətənpərvər bir gənc, cəsur və igid bir döyüşçü kimi ad qazandığını və torpaqlarımızın erməni işğalçılarından azad edilməsində xüsusi xidmətləri olduğunu qeyd edib. Şəhidin qardaşı Mirağa Hüseynov deyib ki, qardaşı Mirəli Vətənini sevən, onun uğrunda ölməyi şərəf bilən cəsur bir oğlan idi. Füzulinin və Qubadlının işğaldan azad edilməsi əməliyyatlarında iştirak etmiş, Qubadlının yuxarı kəndlərinin qaytarılması uğrunda gedən döyüşlərdə şəhid olub.Ölümündən sonra Mirəli "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib. Mirəli 2021-ci ilin oktyabr ayının 28-də şəhadətə yüksəlmiş və Ağcabədi rayon Şəhidlər Xiyabanında dəfn edilib.

Görüş zamanı R.Əhmədov vurğulayıb ki, II Vətən müharibəsi dövründə minlərlə ağcabədili gənc müharibədə iştirak etmiş, 42 şəhid vermişik, yüzlərlə gənc yaralanmış və qazi adını almışdır. Övlad itkisi ağır olsa da, 44 gün davam edən müharibədə qalib gəlməyimiz yaralarımıza məlhəm oldu:"Xalq ayağa qalxaraq, ordunun arxasında durdu, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin qətiyyəti, siyasi və hərb meydanında məqsədyönlü və yorulmaz fəaliyyəti bizə Qələbə sevincini yaşatdı. Bizə Qələbəni bəxş etmiş bütün şəhidlərimizə allah rəhmət eləsin". Şəhidin atası Arif Hüseynov, anası Laləzər Hüseynova şəhid balaları Mirəlinin ad günündə onları tək qoymadıqları üçün qonaqlara təşəkkür etmiş, eyni zamanda, Ağcabədi rayon icra hakimiyyətinin onların problemlərinin həllində həmişə dəstək olduqlarını bildirmiş, şəhid ailələri və qazilərini daim diqqətdə saxladığı, onların maddi təminatının təmin etdiyi üçün Ölkə Prezidenti Cənab İlham Əliyevə öz təşəkkürlərini bildiriblər.

***Z. BAYRAMOVA***

## Zaqatalada şəhid Rəsul Süleymanlının xatirəsi anılıb

YAP Zaqatala rayon təşkilatının, Zaqatala rayon icra hakimiyyətinin rəhbərliyi, rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, din xadimləri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən Vətən müharibəsində döyüşlərdə qəhrəmancasına şəhid olan Zaqatala şəhər sakini Süleymanlı Rəsul Kamil oğlunun ildönümü ilə əlaqədar məzarını ziyarət edib, üzərinə gül-çiçək dəstələri düzərək, əziz xatirəsini böyük ehtiramla yad ediblər.

Sonra şəhidin ailəsini ziyarət edib, qayğı və problemləri ilə maraqlanıblar. Şəhidimizin keçdiyi şərəfli döyüş yolundan bəhs edilib və nümunəvi gənclər kimi cəmiyyətin rəğbətini qazandığı vurğulanıb. Bildirilib ki, 44 günlük Vətən müharibəsində bizə böyük Qələbə sevincini yaşadan şəhidlərimizin əziz xatirəsi xalqımızın yaddaşından heç zaman silinməyəcək.

Şəhid Rəsul Süleymanlının ailə üzvləri Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə, minnətdarlıqlarını bildiriblər.

***ZÜMRÜD***

## YAP Qazax rayon təşkilatının fəalları şəhidlərin məzarlarını ziyarət ediblər

26 oktyabr 2021-ci il tarixdə YAP Qazax rayon təşkilatının fəalları Vətən müharibəsi şəhidləri İsmayılov Tahir Niyazi oğlunun, Mustafayev Merik Musa oğlunun, Veyisli Xaliddin Zərgər oğlunun, Kərimov Emil İlqar oğlunun şəhid olmalarının ildönümləri ilə əlaqədar məzarlarını ziyarət etmiş, ailələrinə baş çəkmişdir. Eyni zamanda, YAP Qazax rayon təşkilatının fəalları Vətən müharibəsi şəhidi Qasımov Oruc Afiq oğlunun doğum günü ilə əlaqədar məzarını ziyarət etmiş, ailə üzvləri ilə görüşmüşlər.

***Rəfiqə***

# İrəvan yaxasını kənara çəkə bilməyəcək

Suren Surenyants: **”Hakimiyyət ya sənədi imzalamaqdan imtina etməli, ya da ölkədə elə bir nəhəng etiraz dalğası qalxacaq ki, belə bir sənədin imzalaması mümkün olmasın. Lakin belə variantların da ehtimalı yoxdur”**

Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Moskvada mümkün üçtərəfli bəyanat imzalaması xəbərləri Ermənistanda ajiotaj yaratmaqda davam edir. Ermənistanda qütblərə ayrılan tərəflərin bir hissəsi hadisələri öz axarına buraxılmasının tərəfdarı olduqlarını desələr də, digər hissəsi əks fikirlərlə çıxışlar edirlər. Lakin elə cinahlar da var ki, növbəti çütərəfli sənədin imzalanmasının qaçılmaz olduğunu deyirlər. Daha dəqiq desək, İrəvanın bu dəfə də yaxasını kənara çəkərək prosesdən yayınacağı ehtimalının və imkanlarının olmadığını vurğulayırlar.



SİA xəbər verir ki, erməni politoloqu Suren Surenyants Sputnik Armeniya-ya açıqlamasında dövlətlərarası sərhədlərin dəqiqləşdirilməsi prosesinin İrəvan üçün ağrılı olduğunu bildirib və deyib ki, delimitasiya və demarkasiya prosesi ilə bağlı Moskvada imzalanacaq bəyanat Ermənistana heç bir üstünlük qazandırmır.

Erməni politoloqu: **”Əks halda belə bir yüksək səviyyədə müvafiq bəyanat səsləndirilməzdi”**

Erməni politoloqu Rusiya prezidenti Vladimir Putinin Rusiyanın iştirakı olmadan Ermənistanla Azərbaycan arasındakı problemin həll edilməsinin mümkün olmayacağı, eləcə də keçmiş İttifaq respublikalarının xəritələrinin Rusiya silahlı qüvvələrinin baş qərargahında saxlanıldığı bəyanatını xatırladaraq qeyd edib ki, artıq prosesə başlanılıb. ”Əks halda belə bir yüksək səviyyədə müvafiq bəyanat səsləndirilməzdi”, deyən Surenyants əlavə edib ki, hətta hakimiyyət müxtəlif səviyyələrdə bu prosesin getmədiyini nə qədər inkar etsə belə, artıq vurğulamaq olar ki, prosesə başlanılıb. O, həmçinin Aliq Media nəşrinin dərcinə də diqqət yetirərək Ermənistanla Azərbaycanın noyabrın 9-da belə bir sənədə imza atacaqlarını bildirib.

### “Hakimiyyət bunu da edə bilmir”

Adıçəkilən nəşr qeyd edib ki, Moskvada iki yeni sənədə imzalar atılacaq. Birincisi baş qərargahda olan və 1920-ci ilə aid edilən sovet xəritəsi əsasındakı sərhədlərin delimitasiyası və demarkasiyası, ikincisi isə regionun kommunikasiyalarının blokadadan çıxarılması.

Erməni politoloq bildirib ki, mövcud prosesi erməni tərəfi üçün sərfedici adlandırmaq mümkün deyil və məhz İrəvan prosesin dəyişdirilməsi, yaxud dayandırılması ”sızmasını” təmin edib. Ancaq hakimiyyət bunu da edə bilmir, Surenyants əminliklə deyir.

”Bunun üçün hakimiyyət ya sənədi imzalanmaqdan imtina etməli, ya da ölkədə elə bir nəhəng etiraz dalğası qalxacaq ki, belə bir sənədin imzalaması mümkün olmasın. Lakin belə variantların da ehtimalı yoxdur”, erməni pilotoloqu bildirib və dolayısı ilə İrəvanın sənədlərə imza atacağı siqnalını verib.

***Rövşən RƏSULOV***

SORAN

# Dəmir yumruq enərsə, çox pis olacaq!

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

Bir il əvvəl və sonrakı məlum proseslərdən sonra hələ də erməni cəmiyyətində revanşçı hisslərdən çıxa bilməyənləri görərkən insanda istər-istəməz belə bir sual yaranır: mənasız, xəstə və sağalmaz ”təfəkkürdən” xilas olmaq belələri üçün bu qədərmi çətindir? Axı bildiyimiz qədər erməni cəmiyyətindən Lipartyan, İsgəndəryan, Ekzoyan və s. kimi normal düşüncəli ictimai-siyasi, elm və s. xadimləri də var. Lakin onu da qeyd edək ki, belə ermənilər revanşçılıq və qəddarlıq, həmçinin irqçilik mövqeyindən çıxış edən digər ermənilər tərəfindən qəbul olunmurlar, hətta zaman-zaman loyal, yaxud həqiqətləri deyənlərə qarşı terrorlar da həyata keçirilib. Qısacası, daşnak düşüncəsi bugünün özündə də Ermənistanda tüğyan edir və bu reallıq, əslində, bütövlükdə Ermənistanın dünya xəritəsindəki mövcudluğunu mümkün məhvinə doğru sürükləmiş olur.

Beləliklə, artıq bir neçə gündür ki, həm Ermənistanda, həm Azərbaycanda, həm də Rusiyada fəaliyyət göstərən sosial şəbəkə seqmentlərində, eləcə də mediada üç ölkə rəhbərlərinin sərhədlərin delimitasiyası və demarkasiyası, həmçinin nəqliyyat-kommunikasiya dəhlizlərinin (Zəngəzur dəhlizinin) blokadadan çıxarılaraq istifadəyə verilməsi yönündə növbəti bəyanatı imzalayacaqları ilə bağlı iddialar səsləndirilir. Açığını desək, kapitulyasiyaya uğramış Ermənistanın əvvəl-axır bu fakt qarşısından kənara çəkilə bilməyəcəyini hər birimiz anlayırıq. Hətta Ermənistan hakimiyyəti son aylarda bu bəyanatın imzalanmayacağını müxtəlif cəhətlərdən inkar etsə belə nəticənin məhz Azərbaycanın diktəsi ilə başa çatacağını əminliklə vurğulaya bilərik.

Lakin həmin bəyanat prosesinin bu ilin noyabr ayının 9/10-da imzalanması mümkünlüyü barədə fikirlər artdıqdan sonra Ermənistandakı revanşçı qüvvələr, xüsusilə daşnaklar, sasnasrerçilər və s. radikal-irqçi, ultra-millətçi qütblər yenidən əsib-coşmağa başlayıblar. Onların belə bir davranış nümayiş etdirmələri, əslində, çox gülüncdür - axı hansı nələrinə güvənib də etiraz edəcəklər? Müharbəmi istəyirlər? Yenidən övladlarının üst-üstə meyitlərini sink tabutlarda göndərilmələrinimi istəyirlər?

Bu yerdə Prezident İlham Əliyevin oktyabrın 25-də Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə səsləndirdiyi fikri xatırlatmaq yerinə düşərdi. SİTAT: ”Müharibə başa çatıb və düzdür, bizi hələ döyüşməyə məcbur edirlər, biz də hazırıq. İstənilən formada, necə deyərlər, meydançada - istər siyasi meydanda, istər hərbi meydanda”.

Özlərini revanşçı kimi göstərib hay-haray qaldıranlar, çox yaxınlarda imzalanması gözlənilən bəyanatlara qarşı çıxanlar onu da bilməlidirlər ki, İlham Əliyev faktoru sözlərini boşuna xatırlatmır və bir gün belə davam edəcəyi halda onların başları birdəfəlik əzilə bilər. Çünki dəmir yumruq yerindədir və havaya qalxmış vəziyyətdə. Enərsə, çox pis olacaq!

# Vasili Koltaşov: ”Ermənistan müstəqil siyasət apara bilməz”

Ötən həftə Moskvada Azərbaycan, Rusiya və Ermənistan baş nazir müavinləri arasında Cənubi Qafqaz regionunda nəqliyyat əlaqələrinin bərpası məsələsinin müzakirə olunduğu görüş keçirilib. Bundan sonra ”RİA Novosti” agentliyi Rusiya, Azərbaycan və Ermənistan liderləri arasında görüşün gözlənildiyi və görüşün yekunlarına əsasən yeni saziş imzalana biləcəyi barədə məlumat yaydı. Daha sonra təfərrüatlar ortaya çıxdı - Azərbaycanla Ermənistan arasında sərhədlərin demarkasiyası və kommunikasiyaların açılmasına dair sənədlərin imzalanması gözlənilir.

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov planlaşdırılan görüşlə bağlı informasiyanı təsdiqləməsə də, təkzib də etməyib. O, bildirib ki, Rusiya-Azərbaycan-Ermənistan sammitinin keçirilməsi ilə bağlı razılaşma olarsa, Moskva bununla bağlı informasiya verəcək.

İrəvanda da oxşar fikirlər səsləndirilib. Bununla belə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Vaan Unanyanın dediyinə görə, yeni danışıqlar tamamilə mümkündür: ”Fərqli formatlarda fərqli görüşlər üçün təkliflər var və bunlar müzakirə olunur”.

Ermənistan hökumətinin başçısı Nikol Paşinyanın özü bu yaxınlarda bəyan etdi ki, Ermənistan yaxın vaxtlarda Azərbaycanla regional kommunikasiyaların açılması üzrə konkret nəticələr əldə olunmasına ümid edir. Bununla yanaşı, Ermənistan müxalifəti noyabrda Nikol Paşinyanın ”Ermənistanın qəti təslim olması haqqında” sənədlər imzalayacağına şübhə etmir və buna görə də erməniləri oktyabrın 30-da keçiriləcək mitinqə çağırır.

”İki sahil” xəbər verir ki, ”buz həqiqətən sınıbmı?” və kommunikasiyaların açılması və sərhədlərin demarkasiyası üzrə proses başlayırmı? Oxu.Az-ın müvafiq sualına cavab verən rusiyalı iqtisadçı, Yeni Cəmiyyət İnstitutunun direktoru Vasili Koltaşov bildirib ki, Nikol Paşinyan şəraitin girovuna çevrilib.

- Ermənistanın baş naziri heç də xoşuna gəlməyən yolla getməyə məcburdur. Söhbət nəqliyyat kommunikasiyalarının açılmasından gedir. O, anlayır ki, qlobal inflyasiyada, dünya bazarlarındakı qeyri-müəyyənlik və Ermənistanın Rusiya bazarından asılılığı şəraitində İrəvan nəqliyyat kommunikasiyalarını açmaq və iqtisadi əlaqələri bərpa etmək məcburiyyətində qalacaq. Bu çətin və ağrılı prosesdir, lakin bundan qaçmaq mümkün deyil.

Nikol Paşinyan çətinliklə hakimiyyətdə qaldı. Aydındır ki, Ermənistanda bu ilin iyununda keçirilən seçkilərdə insanlar reputasiyası ilə bağlı böyük problemləri olan əvvəlki hakimiyyətlərin əleyhinə olduğu qədər Paşinyanın ”lehinə” səs verməyiblər. Ermənistan gərginliyin azalmasını gözləyir, ötənilki müharibə çox da uzun olmasa, nəticələri ciddi oldu. Əməkdaşlıq olmadan və ötən ilin noyabrında imzalanmış müqavilələr yerinə yetirilmədən böhrandan çıxmaq mümkün olmayacaq. Ona görə də hesab edirəm ki, kommunikasiyaların blokdan çıxarılması qaçılmazdır. Prosesin çox asan olmayacağı aydın məsələdir, ancaq başqa variant yoxdur, iqtisadi komponenti aktivləşdirmək lazımdır.

Aydındır ki, Azərbaycan kommunikasiyaların açılmasında maraqlıdır. Rusiya da regionda gərginliyi aradan qaldırmaq, Avrasiya məkanında ticarəti inkişaf etdirmək istəyir. Buna görə də Moskva ölkələr arasındakı münasibətlərdə hakim rolunu saxlayır. Burada əsas sual həmişə Ermənistanla bağlı olub. Erməni siyasi ruhu ölkə üçün rolun və təsirin artırılmasını tələb edirdi, digər dövlətlərlə qarşılıqlı əməkdaşlıq ikinci planda idi.

- Ruben Melkonyan adlı bir erməni türkoloq var. O, bu yaxınlarda bəyan etdi ki, indi Ermənistan hətta müşahidəçi də deyil, regionda gedən proseslərdə iştirak etmir. Etirazlara davam edən və hətta İrəvanda barrikadalar qurmağa hazır olduqlarını bəyan edən radikal erməni müxalifətinin nümayəndələri də bununla razılaşırlar. Aksiyalar zamanı radikallar arasında türklərə qarşı mübarizəyə çağıran ”Zartnir, lao” (”Oyan, oğlum”) mahnısı səslənir, türklər deyəndə azərbaycanlılar da nəzərdə tutulur. Ermənistandakı revanşistlər baş qaldırırlar, bəs onlar vəziyyətə təsir edə bilərlərmi?

- Onlara (revanşistlərə - red.) sual sadədir: siz əvvəl harda olmusunuz? Davadan sonra yumruqları yelləmirlər, bu ki aydındır. Hərbi konflikt göstərdi ki, Ermənistan müstəqil siyasət yürüdə bilməz, o ”Rusiya ilə yeni münasibətlər” qura biləcək vəziyyətdə deyil (bu, Paşinyanın ifadəsidir). Ermənistan özünü Qərbə yönəltməyə çalışırdı. Cəhd etdilər, bəs nə alındı? Türkiyə NATO ölkəsidir və Azərbaycanı (siyasi baxımdan - red.) dəstəklədi.

Ermənistan revanş üçün resursu haradan tapacaq? Revanşist duyğular daha çox milli miflə, hansısa böyük, nəhəng bir şey arzusu ilə əlaqəlidir. Əslində erməni milləti böyük deyil. Ermənilər Ermənistanı tərk edir, Rusiyaya köçür və orada öz vətənlərindən daha yaxşı yaşayırlar. Revanşizmdən danışmaq - Nikol Paşinyana edilən təzyiqdir. Bəli, etirazlar, yolların bağlanması, mitinqlər ola bilər. Amma bundan artıq heç nə.

Hazırda azərbaycanlılar və ermənilərin uzun müddətdir etmədikləri kimi bir-biriləri ilə söhbət etmələri, iqtisadi əməkdaşlıqlığı inkişaf etdirmələri zəruridir. Bu, ziddiyyətləri həll etməyə kömək edəcəkdir. Bir-birini iblisləşdirməyə dəyməz. İqtisadi əməkdaşlığın inkişafı, kanalların, ilk növbədə kommunikasiya kanallarının açılması çox vacibdir. Bu, Ermənistan iqtisadiyyatına və erməni xalqına ancaq xeyir verəcək... İrəvan ”Böyük Ermənistan” haqqında fantaziyaları, yeni sərhədləri unutmalıdır. Ötən əsrin 90-cı illərindəki xaos sona çatdı və hətta həmin vaxt belə ”Böyük Ermənistan” yox, o zaman Azərbaycan ərazisinin bir hissəsini işğal edən bir ölkə ortaya çıxdı. İndi isə Ermənistan öz imkanları daxilində yaşamalı, ayıq başla siyasət aparmalıdır.

# "SOROS"-a satılan müxalifət ifşa olunur

"SOROS"-a satılan Əli Kərimlinin sosial şəbəkələrdə xalqı mitinqlərə çağırması heç də təəccüb doğurmur. Çünki xalqımız 44 günlük Vətən müharibəsi zamanı 30 il torpaq həsrətinə son qoyaraq qələbə zəfəri qazandı və bu gün həmin qələbəmizin ildönümünü yaşayırıq. Bu qələbədən qotur dana kimi qaşınmaya düşən "SOROS"-a satılmışlar sosial şəbəkələrdən mitinq çağırışı ilə xalqı "həmrəyliyə" çağırırlar. Ancaq anlamırlar ki, xalq AXC-Müsavat cütlüyünün bir illik hakimiyyətləri müddətində torpaqlarımızı sataraq xalqımıza qondarma problem yaratdılar. Və bu 28 il ərzində qrant almaq düşüncəsi ilə SOROS-a satılmış bu naqislər hər şeylərini satdılar. Və bu gün bu satqınlar tarixin zibilliyin içərisində yalnız üfunət qoxmaqla, insanları zəhərləməklə məşğuldurlar. Bugünlərdə "Osmanqızı TV"-də "Vətən savaşı başlayarkən biz birlik nümayiş etdirdik",- deyə çıxış edən bu yalançı, satqın, mənəviyyatsız Əli Kərimli kimilər nə qədər iyrənc görünür. "SOROS"-a satılmış ermənilərə nökərçilik edən Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Qənimət Zahid, Vidadi İskəndərli kimi erməni üfunəti verən bu viruslar hansı birlikdən danışırlar? Sentyabrın 27-də Ermənistanın hərbi təxribatlarına qarşı başlanan əks-hücum əməliyyatları zamanı siyasi partiyalar birgə bəyanat qəbul edərək ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin apardığı siyasəti dəstəklədiklərini bildirərkən, bu həmrəylikdən kənarda qalan Əli Kərimli və onun ətrafında olan bu gün yenə də sosial şəbəkələrdə dövlətə, hakimiyyətə qarşı yalan, böhtan deməklə, əldə olunmuş qələbəni kiçiltməyə, ictimai rəydə çaşqınlıq yaratmağa çalışırlar.

### Bu "həmrəyliyi" Əli Kərimli və onun ətrafında olan erməni lobbisinin "təbliğatçıları" bu yolla haraya qədər gedəcəklər?

Yeri gəlmişkən, ermənipərəst Sevinc Osmanqızının internet televiziyasına açıqlamasında Əli Kərimli iddia edib ki, guya "Milli Şura" və AXCP Vətən müharibəsi dövründə "həmrəylik" nümayiş etdirib. Görəsən, bu həmrəyliyi Əli Kərimli və onun ətrafında olan erməni lobbisinin "təbliğatçıları" bu yolla haraya qədər gedəcəklər? Ancaq xalq hər şeyi yaxşı bilir və görür ki, müharibənin əvvəlində Azərbaycanın qələbəsinə inanmayan, xidmət etdiyi ermənipərəst dairələrin sifarişi ilə davranan Əli Kərimlinin 10 noyabr zəfərindən sonra bütün arzuları puç olub və bundan sonra da uğursuz cəhdləri fiaskoya məhkumdur. Və bələləri unudurlar ki, dövlətə, xalqa qarşı edilən xəyanətlər heç zaman bağışlanmır. Bu ünsürlər unutmamalıdır ki, Azərbaycan xalqının milli birliyi, Azərbaycan Ordusunun rəşadəti və Ali Baş Komandanımızın qətiyyəti nəticəsində azad edilən bu torpaqlar bir vaxtlar məhz onların hakimiyyət oyunlarının qurbanına çevrilmişdi.

Çünki bu satqınlar "mübarizələrini" də, "həmrəyliklərini" də yalnız qara piar kampaniyalarının əsasında qurur, yalan rəqəmlər yazmaqla dividend qazanmağa çalışaraq çəkinmədən xalqın adından danışırlar. Öz təbliğatını gördüyü və ya görəcəyi işlərlə deyil, hakimiyyətin üstünə böhtan atmaq "planı" üzərində quran isa qəmbərlər, əli kərimlilər və onların ətrafı bir anlıq geriyə çevrilib öz ətraflarına diqqət salsalar, nəyin şahidi olacaqlarını yaxşı bilərlər. Dağıdıcı müxalifət rəhbərləri yaxşı bilir ki, xalq onların üstlərindən artıq 1993-cü ildən yekə bir qara xətt çəkərək arxivə atıb. Əli Kərimli "Azadlıq" qəzetində ötənləri unutsa da biz ona o "tarixi anları" bir daha xatırlatmaq istərdik. Çünki bu ölkəyə "əxlaq dərsi" keçməyə çalışan, siyasi əxlaqdan dəm vuran Əli Kərimli mətbu "ruporu" Azər Əhmədovun sosial şəbəkələrdə yayımlanan videokadrlarını, görəsən, düşərgə təmsilçiləri necə unutmayıb ki? Sözsüz ki, bu arada Ruslan Bəşirlini də yaddan çıxarmaq olmaz. Düşmənlərlə iyrənc danışıq aparan, düşmən pulu ilə həyat qurmağa çalışan R.Bəşirlinin erməni casusları ilə "konyak içib şokolad yeməsindən" və güman ki, pul bölüşdürməsindən də xəbərsiz olmazdı "lideri". Belə olan halda, hansı "həmrəylik"dən danışmaq olar?

### Əli Kərimlinin əsassız "don kixotluğu" haraya kimi...

"Sapı özümüzdən olan balta"lardan istifadə edən ermənilərə "dayı" deyən, "SOROS"-un qoltuğuna sığınan, Paşinyan sifətli bu vicdanı olmayan ermənipərəst qüvvələrin çirkli pulları və anti-Azərbaycan qüvvələrin tula payı alan bu mənfurlara Azərbaycanın o çörəyi haram olsun! Əli Kərimli kimilər bilməlidir ki, bu gün Azərbaycan dövləti elə bir inkişaf səviyyəsinə çatıb ki, qanundan yan keçmək, gizlənmək, digər vətəndaşlarla müqayisədə daha böyük üstünlüklər əldə etmək mümkün deyil. Bu gün sorosun tör-töküntüləri, çörçöpləri isə əli kərimlilər, əli əliyevlər, cəmillər, sevinclər, qənimətlər kimi ünsürlər xalq tərəfində tarixin zibil yeşiyinə atılanların tarix və zaman tələbi ilə xalqımızın və dövlətimizin mənafeyi, müqəddəs amallarımız, müqəddəs qanunlarımız qarşısında cavab vermələri zamanıdır.

***Rəfiqə HÜSEYNOVA***

## Artak üçün məxsusi ianə torbası...

Sizi bilmirəm, amma mən o vaxt "artsax"ın yeni təyin olunuş "dövlət naziri" Artak Beqlaryan üstümüzə gəlmək ehtimalından yaman ehtiyatlanırdım. Zarafat deyil, çəlimsiz xəstəhal birinin "verdiyi bəyanatlar" yalan olmasın, həmin ərəfədə Qarabağdan qaçmağa imkan tapa bilməmiş bütün ermənilər "ayaqda saxlamışdı". Deyim ki, yenə də həmin ərəfədə həmin o qaça bilməyən 5-6 erməni "dövlət naziri" Artakın "alovlu çıxışlarına" elə aludə olmuşdular ki, onlar "istəsə bir saata Bakını "götürmək" iqtidarında olan Vova Vartanov kimi bir "səhra komandirinə" tərəf belə baxmırdılar.

Hələ onu da deyim ki, həmin günlər Artakın ermənilər arasında artan nüfuzu nəinki Vova Vartanovu, hətta gül kimi ticarət işini qoyub "general mayor olmuş" Vitali Balasanyanıın da ermənilər arasındakı nüfuzuna böyük zərbə vurmuşdu.

Amma onu da etiraf etməyə məcburam ki, bizim bəxtimiz gətirdi, nə mənada? Hə, o mənada ki, ermənilər Artak Beqlaryanı "üstümüzə gəlmək" fikrindən, müvəqqəti də olsa, daşındıra bildilər. Deyirəm, nə yaxşı oldu, yoxsa, görən biz indi haradaydıq...

Amma belə görünür ki, dünya "yaxşı ermənilərdən də xali deyilmiş". Deyilənə görə, indi həmin o "yaxşı ermənilər" "dövlət naziri" Artak Beqlaryanı neçə dəfə Amerikaya çörək dalıyca göndəriblər. ...Burada bir haşiyə çıxıb deyim ki, bu ermənilər də az bilmirlər. Əslinə baxsan, Artakın özünü yox, elə şəklini də amerikalı ermənilərə göndərmək kifayət edərdi. Çünki onun şəklinə baxan kimi, adamın ürəyi ağrayır deyə o dəqiqə ona ianə vermək üçün adam əlini cibinə salmaq istəyir. Amma belə görünür ki, ermənilər hər şeyin orjinal olmağını istəyiblər...

Beləliklə, Amerika Erməni Yevangelist Assosiasiyasının illik toplantısından sonra verilən xeyriyyə naharına özünü güclə çatdıran Artak Beqlaryanın yemək vaxtı içkisi çox düşüb deyə özünəməxsus xüsusi mesajlar verməyi də yaddan çıxarmayıb.

İlk olaraq assosiasiyanın onilliklər ərzində "artsax"a maliyyə yardımı göstərdiyini bildirən Beqlaryan, gileyindən də qalmayıb. Son illərdə bu maliyyə yardımının arasının niyə kəsildiyini sual kimi nəinki stol ətrafında oturan ermənilərə, hətta Amerikadakı bütün, dəxli yoxdur, imkanlı və imkansız ermənilərə ünvanlayıb. Bundan əlavə, "dövlət naziri" amerikalı ermənilərdən "artsax"ın bərpası və inkişafı üçün maddi yardımların daha da artırılmasını təvəqqə edib. O, həmçinin Amerikadakı ermənilərdən "artsax"ın "müstəqilliyinin beynəlxalq səviyyədə" tanınması üçün "təkan" vermələrini də xahiş edib.

Qeyd edək ki, Artakın üzünə baxıb halına acıyan Amerika Erməni Yevangelist Assosiasiyasının icraçı direktoru Zaven Xançian onun üçün ianə toplama tədbiri keçirib və yığılan ianəni qəpiyinə qədər "torbaya yığıb" məxsusi olaraq ona göndərəcəyini bildirib.

***Ağasəf Babayev***

# "Heç nəyə nail olmayan İran öz siyasətini dəyişdi"

***POLİTOLOQ MARAQLI MƏQAMLARI SADALADI***

"İranın bu cür artıq yumşaq davranmasının bir neçə səbəbi var və bu səbəblərdən biri də geosiyasi səbəbdir ki, 44 günlük müharibənin nəticəsində regionda Türkiyənin rolu çox artdı, Rusiya öz rolunu qoruyub saxlaya bildi, İran isə necə ki, müharibədən öncə ən zəif regional ölkə idi, elə də müharibədən sonra qaldı." Bu sözləri SİA-ya verdiyi açıqlamasında politoloq Fərhad Məmmədli deyib.

Politoloq qeyd edib ki, köhnə mexanizmlərdən istifadə edərək İran regionda öz rolunu qoruyub saxlamaq istəyirdi və köhnə mexanizm dedikdə, Qarabağ ermənilərinə dəstək nəzərdə tutulurdu ki, Azərbaycan da buna qarşı çıxdı, çünki yeni geosiyasi reallıqlar yaradılıb.

"Düşünürəm ki, İranda keçmiş hakimiyyət qalsaydı böyük ehtimalla bu cür münasibətlər canlanmazdı. Çünki, onlar müharibədən sonra kifayət qədət praqmatik addımlar atdılar. İranın xarici işlər naziri Zərifin Azərbaycana səfərini, regional səfəri misal göstərmək olar. Yeni adminstrasiya güc faktorundan istifadə etmək, Azərbaycana təzyiq etmək istədi və bu alınmadı. Bu alınmadığı təqdirdə Ermənistana təzyiqlər etməyə başladı. Azərbaycana təzyiqlər gözə görünən idisə, Ermənistana təzyiqlər gözə görünməyən idi. Rəsmi xəbərlərdə də bu var idi, hətta Ermənistanın xarici işlər nazirinin Tehrana dəvət olunması da var idi.

Ermənistana qarşı təzyiqlər olduğu bir dövrdə Rusiya artıq proseslərə qoşuldu və İrana xatırlatdı ki, Ermənistanın hərbi-siyasi müttəfiqi əslində, Rusiya Federasiyasıdır. Bütün bu təzyiq mexanizmlərini istifadə edərək heç nəyə nail olmayan İran öz siyasətini dəyişdi və mülayimləşmə, siyasi, diplomatik yollarla məsələlərin həllini vurğuladı. Ən simvolik məqam ondan ibarətdir ki, bu günə qədər bir neçə dəfə İran xarici işlər naziri Azərbaycan xarici işlər naziri ilə telefonla danışıb və bütün zənglərin təşəbbüskarı İran tərəfidir. Bu da kifayət qədər şərq məntiqinə sığır ki, münasibətləri gərginləşdirən məhz bu münasibətləri normallaşdırmaq üçün də təşəbbüs etməlidir. Yəni, hər iki təşəbbüs də bir tərəfə aid olmalıdır. Azərbaycan da bu məntiqlə həm əsassız ittihamlara layiqli cavab verdi, həm də, eyni zamanda gözləyərək İranın yumşalma siyasətinə də konstruktiv cavab verdi. Əlbəttə ki, bu, cənab Prezident İlham Əliyevin növbəti diplomatik uğurudur", deyə politoloq Fərhad Məmmədli bildirib.

***İnam Hacıyev***

# İqor Yuşkov: ”Avropada qazın bahalaşması həm Rusiya, həm də Azərbaycan üçün əlverişlidir”

Rusiya Milli Enerji Təhlükəsizliyi Fondunun analitiki, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin eksperti İqor Yuşkov “Caliber” analitik mərkəzinə müsahibəsində dünya bazarında qazın qiymətinin kəskin bahalaşması ilə bağlı maraqlı məqamlara toxunub. Müsahibəni təqdim edirik.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

***- Avropada qazın qiyməti sürətlə artır. Qazın bahalaşması qışın çox soyuq keçməsi ilə əlaqədar ilin əvvəlindən müşahidə olunub və istilik mövsümünə doğru xeyli sürətlənib. Aydındır ki, "mavi yanacağın" bahalaşmasına təkcə mövsümi deyil, digər amillər də təsir edib. Nə fikirləşirsiniz?***

- Doğrudan da, bir çox amillər ona gətirib çıxarıb ki, indi biz Avropada qaz qiymətləri ilə bağlı rekord rəqəmlər görürük. Üstəlik, təkcə qaz üçün deyil, digər enerji mənbələri üçün də. Biz indiki enerji böhranının əsasını qoyan belə fundamental amillərdən başlaya bilərik. Bu, ilk növbədə, bazarın liberal modelini tam olaraq quran, qiymətlərdə belə böyük sıçrayışların formalaşmasına imkan verən Avropa İttifaqının enerji siyasətinin özüdür. Çünki avropalılar həmişə belə hesab edirdilər ki, daim Avropaya qaz tədarük etmək istəyən çoxlu tədarükçülər olacaq. Və istehlakçı həmişə bu təchizatçılar arasında seçim edəcək. Butəchizatçılar bir-biri ilə rəqabət aparacaq və qiymət aşağı düşəcək. Əgər siz belə bir fundamental prinsip, belə bir bünövrə qoyursunuzsa, o zaman bazarın liberal modelini yaratmağınız məntiqlidir. Onda həmişə azad rəqabətiniz olacaq. Buna görə də avropalılar israr edirdilər ki, alıcılar tədarükçülərlə uzunmüddətli müqavilələr bağlamasınlar ki, onlar özlərini qısamüddətli müqavilə bazarına yönləndirsinlər. Əgər uzunmüddətli müqavilələr imzalayıblarsa, heç olmasa bu uzunmüddətli müqavilələrdə qiymətləri neftin qiymətinə deyil, qazın qiymətinə bağladılar. Bu, qiymətin bu qədər yüksəlməsinin əsas amillərindən biridir.

Bazarda vəziyyət tamamilə dəyişdi. Əvvəllər alıcı bazarı var idisə, indi satıcı bazarıdır. Yəni, alıcılar mövcud qaz həcmlərini almaq fürsəti üçün artıq növbəyə dururlar. Rəqabət qiymət dəyişikliklərinə səbəb olur. İndi bu qiymət artır. İndi, buyurun, sərfəli qaz üçün mübarizə aparın, daha yüksək qiymət verin. Və bu da əsas amillərdən birinə çevrildi.

İkinci amil yenə də Avropa İttifaqının enerji siyasəti ilə bağlıdır. Bu ondan ibarətdir ki, Aİ sözdə alternativ enerjiyə keçidi sürətləndirdi. Ənənəvi enerji mənbələri fəal şəkildə sıxışdırıldı. Məhz ənənəvi enerji - kömür və qaz hesabına balanslar ”bizə lazımdır sizdən alırıq, ehtiyac yoxdur- almayacağıq” prinsipi ilə tarazlaşdırılır. Və bu, bir çox oyunçunun müvafiq olaraq kömür və yanacaqdoldurma məntəqələrini bağlamağa üstünlük verərək bazarı tərk etməsinə səbəb oldu. Avropalıların kömürlə işləyən elektrik stansiyalarını partlatması və ya profilini dəyişdirməsi ilə bağlı çoxlu kadrlar görmüşük. Və bu uğur hesab olunurdu. Bu sürətlənmiş enerji keçidi fonunda sabah qaza ehtiyac olmayacaq, istehlakı azaldacağıq deyərək Avropa qalıq enerji mənbələrindən istifadədən tamamilə imtina etməyə imkan verən Yaşıl müqavilə proqramını qəbul etdi. Belə şəraitdə Avropa İttifaqında, əsasən Şimal dənizində qaz hasil edən şirkətlər yeni yataqlara investisiya qoymaqdan və ya köhnə yataqlarda hasilatı saxlamaqdan qorxurlar.

Yatırdığınız sərmayəni geri almasanız nə etməli? Tezliklə qazın lazımsız olacağını deyirlər. Ona görə də həmin Böyük Britaniya, Hollandiya və başqaları öz hasilatını azaldırlar. Hətta Norveç kimi Aİ üzvü olmayan ölkələr də investisiya qoymaqdan qorxurlar. Norveçin Şimal dənizində hasilatı azalır- artıq 4-cü ildir. Barents dənizində isə layihələr baha başa gəlir və sərmayənin qaytarılmasına zəmanət yoxdur, bu da avropalıları növbəti qaz hasilatından imtina etməyə məcbur edir. Bütün dünyada qaz bazarını qloballaşdıran LNG konsepsiyası da var.

***- Bəzi ölkələr Rusiya amilinin müdaxiləsindən kənarda qalmayan Avropada qazın qiymətinin bahalaşmasının əsas mənfəətçisi kimi Rusiyanı hesab edirlər. Bunu necə şərh edərdiniz?***

- Mən deyərdim ki, qiymətlər orta hesabla yuxarı qalxanda istənilən təchizatçı benefisiar olur. Rusiya da, Azərbaycan da, başqaları da. Çünki tədarük kifayət qədər sabitdir və hətta artır. İstənilən istehsalçı faydalanacaq. LNG-ni götürsək, bütün LNG təchizatçıları da faydalanır. Bu baxımdan hər şey məntiqlidir. Siz bahalaşan bir məhsul satırsınız. Ancaq qiymət super yüksəkdirsə, o zaman tələbi öldürməyə başlayırlar. Biz görürük ki, Avropada kimya istehsalı, azot gübrələri seqmentində istehlakın həcmi necə azalır, kənd təsərrüfatında, hətta istixanaları qazla qızdıranlar da bunu dayandırırlar. Onlar bunu ödəyə bilməzlər. Ultrayüksək qiymət təchizatçı üçün də riskli olmağa başlayır.

İstehlakçılar bahalı qazın bir hissəsini keyfiyyətli kömürlə əvəz etmək istəyirdilər. Lakin kömür də kifayət etmirdi. Yeri gəlmişkən, o, qiymətlərə görə də tarixi rekord qırdı. Və hələ də kifayət deyil. Qaz əsas düşməni olan REE (bərpa olunan enerji) ilə müqayisədə daha az rəqabətə davamlı olur. Qazın 1000 kubmetri 200-300 dollara başa gələndə bu iqtisadi cəhətdən daha sərfəlidir. Qaz 700-800 dollara başa gələndə insanlar artıq düşünməyə başlayırlar ki, bərpa olunan enerji o qədər də bahalı mənbə deyil. Buna görə də, daha doğrusu, bütün təchizatçılar və əlbəttə ki, Rusiya da, münasib qiymətdən faydalanır. Baxmayaraq ki, Qazprom-un ilin birinci yarısında Avropaya ixracının orta qiyməti və Çinə tədarükün kiçik həcmi 1000 kubmetr üçün cəmi 208 dollar təşkil edib.

***- Enerji qiymətlərindəki sıçrayışlar, sizcə, nəyə gətirib çıxaracaq?***

- Hazırda uzunmüddətli perspektivdə nələrin baş verəcəyi ilə bağlı müzakirələr gedir. Bu fenomenin qarşısını necə almaq olar? Rusiya kimi bir çox istehsalçı əsas məsələnin enerji sisteminin sabitliyi olduğunu deyir. Bəli, bəlkə də ultra yüksək qiymətlərin olması, belə sıçrayışlar olmazdı. Bundan sığortalanmış uzunmüddətli müqavilələr olardı. Çünki nisbətən desək, ”Qazprom”un uzunmüddətli müqavilə üzrə qiyməti gündəlik deyil, rüblük dəyişir.. İstehsalçıların nöqteyi-nəzəri budur: gəlin uzunmüddətli müqavilələr bağlayaq, bu bizə həm tələbin həcmini, həm də istehsalın həcmini proqnozlaşdırmağa imkan verəcək, onları tarazlaşdıraq ki, heç kəs kəsirlə qalmasın.

Avropanın bu soyuq mövsümdən necə keçəcəyi də bəlli deyil. Burada kifayət qədər risklər var. İndi oktyabrın ikinci yarısıdır. Onlar cəmi bir həftə əvvəl istilik mövsümünə başlayıblar. Fevralda, martda yeraltı anbarda qaz qurtaranda nə olacaq? Təbii ki, böhranın dərinliyini bir az sonra öyrənəcəyik. Amma avropalılar, ən azı Avropa Komissiyasının üzvləri artıq bütün problemlərin ənənəvi enerjidən qaynaqlandığını deyirlər. Onlar öz strategiyalarını mantra kimi təkrarlayırlar ki, qaz bahadır, ona görə də bərpa olunan alternativ mənbələrə keçmək lazımdır. Əgər biz bərpa olunan enerji mənbələrinə keçsək, o zaman qaza ümumiyyətlə ehtiyac qalmayacaq. Prinsipcə, məntiqlidir: qaz bahadır, ondan imtina edək. Lakin o, külək generasiyasından aşağı düşən həcmləri əvəz etməyə çalışdığı üçün bahalaşdı. Amma bunu etiraf etmirlər. Sonra öz səhvini etiraf etməlisən ki, bəli, tələsdik. Ola bilsin ki, bərpa olunan enerjini daha çox ehtiyatda saxlamaq lazım idi.

***- Qazın qiymətinin aşağı salınması üçün ilkin şərtlər varmı?***

- Söhbət fyuçerslərin birja qiymətlərindən gedirsə, böyük ehtimalla dalğalanmalar olacaq. Amma bizim üçün xüsusi olaraq bazar haqqında danışmaq vacibdir. İndi Avropada 1000 kubmetrin qiyməti təxminən 700-800 dollardır. Burada hesab edirəm ki, təxminən eyni qiymətlər istilik mövsümünün sonuna qədər davam edəcək. Çünki bu kəsir bu gün heç yerə getmir. Bu gün ”Şimal axını 2” işə salınsa, o, tam gücü ilə işə başlasa, qiymətlər aşağı düşəcək, amma çox da deyil. Yəni, hətta ”Şimal axını-2” də vəziyyətin köklü dəyişməsinə səbəb olmayacaq.

Qiymətlərin kəskin şəkildə aşağı düşməsi üçün qeyri-adi bir şey baş verməlidir. Yəni, Asiyada böyük birisi əhəmiyyətli həcmdə qaz istehlakından imtina etməlidir. Əgər Yaponiya bütün nüvə enerji bloklarını işə salsa, qaz istehlakını əhəmiyyətli dərəcədə azaldarsa və o qaz Avropaya qayıdarsa... Amma bu, belə fantastik ssenaridir.

Ən tezi martdan sonra qazın 1000 kubmetrinin 400-500 dollara düşməsi şansı var. Avropa qarşıdan gələn istilik mövsümünü boş qaz anbarları ilə tərk edəcək. Və yenə də bütün yayda növbəti istilik mövsümünə hazırlaşmalı olacaqlar. Bu dəfə daha cəsarətli olacaqlar. Hər an bu qiymətin pik həddə çatacağından ehtiyat edərək, qazı ”nasos etmədirlər”. Bu halda da tələbat böyük olacaq və qiymətlər yenidən qalxacaq.

***- Bir çox Avropa ölkələri "Qazprom"la uzunmüddətli qaz müqavilələri bağlamaqdan qorxur. Onların qorxusuna nə səbəb oldu? Və belə müqavilələrin faydası nədir?***

- Hazırda bu, ”Qazprom”un uzunmüddətli müqavilələrində çox aşkar fərqdir. Nisbi desək, 1000 kubmetr üçün 300-400 dollar. Yerində isə 700-800 görürük. Əslində 2 dəfə ucuz verilir. Brüsseldən çox sərt təzyiq var. Deyirlər: ”Heç kimlə, xüsusən də ”Qazprom”la uzunmüddətli müqavilələr bağlamayın. Siz ildə 5,7,10 milyard kubmetr qaz almağa abunə olacaqsınız. Sonra biz sizi məcbur edəcəyik ki, qazın özünü azaldasınız. Bu müqavilələrdə al və ya ödə bəndi var. Nəticədə siz də qaz istehlak etməyəcəksiniz və Qazproma pul ödəməli olacaqsınız”.

Avropalılardan gördüyümüz uzunmüddətli müqavilələrə qarşı ikinci məqam isə bunun ”müvəqqəti böhran”, ”bir çox amillərin təsadüfü”, ona görə də ”gələcəkdə daha yaxşı olacağı” tezisidir. Bundan sonra yerində aşağı qiymətlər olacaq. Bunun belə olması mümkündür. Keçən ili götürə bilərik. Düzdür, bu covid ili idi. Orada da bir çox amillər üst-üstə düşürdü. Lakin sonradan yerindəcə qiymət 1000 kubmetr üçün təxminən 40 dollara düşdü. Bu baxımdan, 2021-i 2020-I ilə müqayisə etmək olar. O vaxtlar ultra aşağı qaz qiymətləri var idi, indi çox yüksəkdir. Baxmayaraq ki, Qazprom indi yalnız uzunmüddətli müqavilələr bağlayır. Bu sabitləşdirici amildir.

Azərbaycan Bolqarıstan, İtaliya, Yunanıstanla uzunmüddətli müqavilələr imzalayıb ki, bu da bu ölkələrdə qiymətlərin sabitləşdirilməsi amili rolunu oynayıb. Bu baxımdan bu ölkələrin bəxti gətirib ki, Azərbaycandan qaz alırlar. Və onların çoxlu qazı var.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
27 oktyabr
2021-ci il

# "Liverpul"un 120 milyonluq hədəfi!

"Liverpul" heyətinə yeni futbolçu qatmaq niyyətindədir. Qol.az "Bild"ə istinadən xəbər verir ki, "mersisaydlılar" "Borussiya"dan (Dortmund) Cud Bellinqemi transfer etmək istəyir. Baş məşqçi Yurgen Klopp xüsusən 18 yaşlı yarımmüdafiəçi ilə maraqlanır. Lakin qarşı tərəf futbolçu üçün 120 milyon avro tələb edir. "Liverpul" isə ingiltərəli oyunçunu daha uyğun məbləğə almağı planlaşdırır.

Qeyd edək ki, Bellinqemin "Borussiya" ilə müqaviləsi 2025-ci ilin yayına qədərdir.

# "Covid-19" psixi problemlər də yaradırmış...

**Aparılan tədqiqatlar nəticəsindəki yeni növ koronavirusa (Covid-19) yoluxmuş bir çox insanın bir müddət sonra psixi problemlər yaşadığı da məlum olub. SİA bu barədə xarici mətbuata istinad edir.**

Beləliklə, ABŞ-da Nyu-Yorkdakı Munt Sinai xəstəxanalarında müalicə olunan Covid-19 xəstələri üzərində aparılan bir araşdırmanın nəticələrinə görə, xəstələrin 24%-də "Uzun Covid" olaraq adlandırılan simptomlar qeydə alınıb. Sağaldıqdan aylar sonra sağlamlıq problemlərinin davam etdiyi təsbit edilib. Araşdırma nəticəsində məlum olub ki, bu xəstələrdə yaddaş, çox işə fokuslanmaq, düşünmə sürəti və diqqət kimi zehni bacarıqlarla bağlı problemlər diaqnozdan sonra daha 7 ay davam edir. Bildirilir ki, xəstələrin ən çox qarşılaşdıqları problem, onların yeni xatirələr yarada bilməmək və köhnə xatirələri xatırlaya bilməməkdir.

Tədqiqat iştirakçılarından həkim İqor Koralnik yüngül xəstəlik keçirən gənclərdə bu problemlərin niyə yarandığını və nə vaxt sağalacaqlarını bilmədiklərini, lakin bəzi xəstələrin psixi problemlərə görə özlərinə baxa bilməyəcək vəziyyətlə qarşılaşdıqlarını bildirib.

*Ağasəf Babayev*

## "Rekordmen" ayaqqabısı rekord qiymətə satılıb

Basketbol əfsanəsi Maykl Cordanın geyindiyi ayaqqabısı, 1984-cü il model ayaqqabısı 1,47 milyon dollara satılıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, ən bahalı ikinci əl idman ayaqqabısı rekordunu qırıb. Üzərində Mayklın da imzasını daşıyan ayaqqabılar 1984-cü ildə top kolleksiyaçısı Tommi Tim III Lyuisə hədiyyə edilib.

*Aytac Əliyeva*

## Möcüzəvi təbii ağrıkəsici – badam

Gecənin bir yarısı olduqca güclü başağrısı ilə oyanırsınız.. Ancaq evdə ağrıkəsici yoxdur. Bu halda möcüzəvi şəkildə ağrını aradan qaldıran badam köməyinizə gələ bilər.

Badamin içərisində salisin adlı maddə vardır ki, bu maddə təbii ağrıkəsici funksiyasını yerinə yetirir. Badam tərkibində yüksək nisbətdə maqnezium olduğu üçün eyni zamanda əzələlərin boşalmasını təmin edir və gərginliyinizi aradan qaldırır. Başınız ağrıyırsa, 10-12 ədəd badam yesəniz, bu, 2 aspirin içmiş qədər təsirini göstərəcəkdir. Hər ağrı zamanı ağrıkəsicilərə müraciət etmək əvəzinə ağrılarınızdan təbii yollarla xilas ola bilərsiniz.

## Keçmiş top-model: İtmiş pullara səbəb pandemiyadır

Britaniyalı keçmiş top-model Naomi Kempbell, xeyriyyə məqsədilə toplanan milyonların hesabatını verə bilməyib. SİA xarici mətbuata istinadən xəbər verir ki, 51 yaşlı model, 2018-ci ildə bərabərlik həmrəyliyi üçün təşkil etdiyi qalada 1,6 milyon funt sterlinq ianə toplayıb.

Məlum olub ki, o, 15 ay ərzində həmin pulun cəmi 5500 funt-sterlinqini bağışlayıb. İstintaq çərçivəsində ondan hesabların sənədləşdirilməsi tələb olunub. Lakin onun qurduğu "Fashion for Relief" adlı fond tələb olunan tarixdə sənədləri təqdim edə bilməyib. Fond gecikmənin pandemiya ilə bağlı olduğunu iddia edib.

# Həkim-mütəxəssis: "Oturaq həyat tərzi və artıq çəki bu xəstəliyə səbəb olur"

Osteoartrit termini yunan dilində oynaq mənasını verən "artron" sözündən əmələ gəlib. Osteoartritə xalq arasında kirəcləşmə deyilir. Bu, oynaqların qığırdaq toxumasının quruluşunun pozulması, qığırdağın aşınması və zədələnməsi ilə müşahidə olunan xəstəlikdir. Osteoartritə daha çox diz, bud-çanaq, bilək və onurğa sütunu oynaqlarında rast gəlinir. Xəstəlik qadınlarda kişilərə nisbətən daha çox müşahidə olunur. Əsasən 50 yaşdan yuxarı şəxslərdə qeyd edilir. Xəstəlik vaxtında müalicə olunmadıqda oynaqların yükdaşımasını təmin edən qığırdağın tamamilə nazilməsi və sümük başlarının bir-birinə sürtülməsi ilə nəticələnir. Qığırdağın bu zədələnməsi ilə birlikdə oynaqda kəskin ağrılar meydana çıxır.

AZƏRTAC xəbər verir ki, ortoped-travmatoloq Müseyib Əhmədov osteoartritin səbəbləri və xəstəlikdən qorunma üsulları barədə danışıb.

Həkim-mütəxəssis qeyd edib ki, son vaxtlar 60-70 yaşı olanlarda belə diz ağrıları geniş yayılıb: "Lakin bu xəstəlik 30 yaşda da başlaya bilər. Osteoartrit diz ağrılarının əsas səbəbi olub, artritin ən çox yayılmış formasıdır və müalicə oluna bilən xəstəlikdir. Ola bilər ki, xəstə heç vaxt ağrılardan tam qurtula bilməsin, amma bu xəstəliyi idarə edə və əlamətlərinə nəzarət edə bilər. Əgər xəstənin dizi, diz qapağının altı ağrıyırsa, xüsusən də diz çökəndə, çömbələndə və ya pilləkənlə aşağı enərkən bərk ağrılar olursa, bu osteoartrit əlamətidir. Ağrıları azaltmaq üçün artıq çəkidən azad olmaq məsləhətdir. Oturaq həyat tərzi, piylənmə, ağır yükqaldırma osteoartritin yaranmasına səbəb olur. Belə olan halda, sümüklər arasındakı qığırdaqlar ömür boyu dağılır. Bəzilərində bu proses zədələr və ya genetik faktorlardan asılı olaraq daha sürətlə gedir. Qığırdaqlar nazildikcə, sümüklər bir-birinə sürtülür və ağrı, şişkinlik yaranır. Əgər bu ağrılar ciddi narahatlıq törədir, gecələr yuxudan oyadırsa, həkimə müraciət etmək lazımdır. Bunun osteoartrit olub-olmadığını rentgen və ya zərurət yaranarsa, menisk yırtıqlarının olub-olmadığını maqnit rezonans tomoqrafiyası müəyyən edəcək".

M.Əhmədov, həmçinin bildirib ki, diz ağrısının qarşısını almaq üçün bir sıra vərdişləri dəyişmək lazımdır: "Məsələn, dizləri bükərək üzərinə oturmaq vərdişini tərgitmək, xüsusən yaşlıların pilləkən əvəzinə liftlərdən istifadə etməsi, mümkün olduğu qədər yoxuşlu yollar əvəzinə düz yollarla getməsi məsləhətdir. Kəskin diz ağrısında müalicənin ən son variantı cərrahi müdaxilədir. Gənc xəstələrdə meniskial problemlərə bağlı ağrılarda daha çox qapalı artroskopik, yaşlı xəstələrdə isə açıq əməliyyatlar – endoprotezləşdirmə seçilir. Xəstədə diz qapağı çıxıqları, ön və arxa çarpaz bağ yaralanmaları ilə əlaqədar meydana gələn diz ağrıları varsa, artroskopik və mini açıq əməliyyatlar icra edilir. Ona görə də, tövsiyə edirəm ki, dizə yüklənərkən ağrılar artırsa, hərəkət məhdudluğu varsa, dizdə şişkinlik, deformasiya müşahidə olunursa, pilləkən enərkən və qalxarkən ağrı yaranırsa, mütləq həkimə müraciət edin. Vaxtında edilən həkim müayinəsi və müalicəsi xəstəni cərrahi müdaxilədən qoruya bilər".

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**